UNITED NATIONS
AZERBAIJAN

BMT-nin ölkə üzrə illik hesabatı

# Azərbaycan
# 2024



# Mündəricat


**Rezident Əlaqələndiricidən ön söz** **3**

**BMT-nin Ölkə üzrə İdarə Heyəti** **4**

**Əsas inkişaf tərəfdaşları** **4**

**Fəsil 1.** Ölkə və regionda baş vermiş əsas hadisələr 5
- 1.1. DİM-lərin icrasında irəliləyiş 5
- 1.2. Sosial-iqtisadi icmal 5
- 1.3. Münaqişədən sonrakı bərpa 6
- 1.4. Ətraf mühit və iqlim dəyişmələri ilə mübarizə 7

**Fəsil 2.** BMT-nin inkişaf sisteminin milli inkişaf prioritetlərinə dəstəyi 8
- 2.1. Əməkdaşlığa dair Çərçivə Sənədinin nəticələrinin icmalı 8
- 2.2. Əməkdaşlığa dair Çərçivə Sənədinin prioritetləri, nəticələri və məhsulları 14
- 2.3. Tərəfdaşlıqlara dəstək və 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi 28
- 2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı işləməsinin nəticələri: BMT birliyi, effektivliyi və səmərəliliyi 28
- 2.5. Qiymətləndirmə və öyrənilmiş dərslər 30
- 2.6. Maliyyə icmalı və resursların cəlb olunması 31

**BMT-nin 2025-ci il üçün əsas istiqaməti** **32**


Üz qabığında: Nurun anası deyir: "Bir çox çətinliklə üzləşməsinə və 5 əməliyyat keçirməsinə baxmayaraq, Nur hər gün həvəslə məktəbə gedir, dərslərində fərqlənir, pozitiv və sosial bir uşaq olub. Düzgün dəstək olduqda hər bir uşaq öyrənə və uğur qazana bilər".
Foto: UNICEF/Əziz Kərimov /2024





Layihənin aparıcısı Elçin Məhərrəmov Samux rayonunda günəbaxan sahəsində istixana innovasiyalarını müzakirə edir.
Foto: FAO/Cavid Qurbanov/2024

# Rezident Əlaqələndiricidən ön söz




"2024-cü il Azərbaycan üçün və onun BMT ilə tərəfdaşlığı üçün həlledici il olub. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməklə qlobal arenaya çıxdığı bir vaxtda, BMT sistemi ölkə ilə tam həmrəylik nümayiş etdirib."

**Vladanka Andreeva**
BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi

BMT-nin Ölkə üzrə İdarə Heyəti COP29 çərçivəsində Bakıya səfər edən BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb
Foto: BMT RƏO/Məmməd Əliyev/2024

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Katibliyi BMT-nin iqlim dəyişikliyi prosesi üzrə baş məsul qurum kimi çıxış etməklə, BMT sistemi COP29 sədrliyini dəstəkləmək məqsədilə Qlobal BMT COP29 İşçi Qrupunu səfərbər edib. Bu işçi qrupuna BMT Baş katibinin İqlim Fəaliyyəti və Ədalətli Keçid üzrə Xüsusi Müşaviri Selvin Hart ilə birlikdə həmsədrlik etmək mənim üçün qürurverici idi. COP29 Sədrliyi ilə sıx əməkdaşlıq şəraitində, biz 25-dən çox BMT qurumunun biliklərindən istifadə edərək, Sədrliyin irəli sürdüyü geniş miqyaslı təşəbbüslərə texniki və siyasət yönümlü məsləhətlər verdik.

Bunlara Bakı Qlobal İqlim Şəffaflığı Platforması, İqlim Fəaliyyəti naminə Su Bəyannaməsi, İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü, eləcə də yaşıl enerji zonalarının və iqlim maliyyəsinin təşviqi üzrə fəaliyyətlər daxil olub. BMT Azərbaycan Hökumətinin COP29-u iddialı, inklüziv və fəaliyyət yönümlü qlobal iqlim forumuna çevirmək istiqamətində nümayiş etdirdiyi liderliyi və baxışı dəstəkləyib.

BMT-nin Ölkə üzrə İdarə Heyəti həmçinin siyasətlər üzrə dəstək göstərib və COP29 çərçivəsində təşkil olunan "İqlim Danışıqları" vasitəsilə gənclərin, uşaqların, qadınların və həssas icmaların səslərinin eşidilməsinə töhfə verib. Bu dialoqlar iqlim fəaliyyətinin Azərbaycanın geniş miqyaslı inkişaf prioritetlərinə uyğun, inklüziv və yerli reallıqlara əsaslanaraq həyata keçirilməsini təmin edib.

BMT İl ərzində minaların təmizlənməsi, bu sahə üzrə təlim, 10,000-dən çox uşaq və ailələrinin mina təhlükəsi haqqında maarifləndirilməsi sahəsində məqsədyönlü dəstəyini davam etdirib. Bu səylər Hökumətin rəhbərliyi ilə minlərlə keçmiş məcburi köçkünün təhlükəsiz şəkildə geri qayıdışının təmin edilməsinə töhfə vermək məqsədi daşıyır.

Fəaliyyətimizin mərkəzində xidmət göstərdiyimiz insanlar dayanır – inklüziv təhsilə çıxışı olan uşaqlar, innovasiya və iqlim fəaliyyətində aparıcı rol oynayan gənclər, yerli iqtisadiyyatı canlandıran fermerlər və kiçik sahibkarlar, eləcə də əsas xidmətlərə çıxış əldə edən qaçqınlar və vətəndaşlığı olmayan şəxslər.

Təkcə 2024-cü il ərzində 18 mindən dən çox uşaq erkən təlim dəstəyindən, təxminən 11 min nəfər isə hüquqi yardım və psixososial xidmətlərdən faydalanıb. Bundan əlavə, 22 rayonda yerləşən 67 məktəbdə inklüziv təhsilə çıxışın genişləndirilməsinə dəstək göstərilib və 11 mindən çox müəllim və təhsil işçisi uşaq hüquqlarının qorunması və inklüziv yanaşmalar üzrə təlimləndirilib.

Biz, həmçinin, uzunmüddətli inkişafa istiqamət verəcək siyasət və alətlərin hazırlanması üçün qurumlarla sıx əməkdaşlıq etdik - Milli Uyğunlaşma Planı, Antimikrob Müqaviməti üzrə Milli Fəaliyyət Planı, Məcburi Köçkünlər üçün Gender Amillərini Nəzərə Alan Reinteqrasiyası Planı, habelə genderə həssas dövlət xidmətləri və penitensiar idarəetmə üzrə təlimatlar daxil olmaqla, 19 strateji sənədi dəstəklədik. Bunlar sadəcə siyasət sənədləri deyil, dayanıqlı və inkluziv transformasiya üçün təməl daşlarıdır.

BMT-nin 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin (ÇS) yekun qiymətləndirilməsi birgə işimizin təsir və əhəmiyyətini təsdiq edib. Bu sənəd həmçinin, bizi daha da irəliyə, Azərbaycan xalqı üçün nəticələri daha çox məlumatlara əsaslanan, gender aspektlərini nəzərə alan, inklüziv və çevik şəkildə əldə etməyə çağırır. DİM-lərə nail olmaq istiqamətindəki səylərin son həmləsi olan növbəti Əməkdaşlığa dair Çərçivə Sənədinə (2026-2030) hazırlaşarkən biz 2024-cü ilin öyrənilmiş dərslərini və təkanını da özümüzlə aparırıq. Biz etimada, milli prioritetlərə və heç kimin kənarda qalmaması prinsipinə əsaslanan tərəfdaşlığa sadiqliyimizi bir daha təsdiqləyirik.

# BMT-nin Ölkə üzrə İdarə Heyəti

BMT-nin 18 agentlik, fond və proqramından ibarət olan BMT-nin Ölkə üzrə İdarə Heyəti Dayanıqlı İnkişaf Məqsədləri (DİM) istiqamətində irəliləmək üçün öz təcrübəsindən istifadə etmək öhdəliyinə sadiqdir. Birgə səylərimiz Azərbaycanın heç kəsi kənarda qoymayan inklüziv, ədalətli cəmiyyətə, eyni zamanda regionda və dünyada inkişaf tərəfdaşına çevrilməklə bağlı milli hədəfini dəstəkləyir.

UNITED NATIONS AZERBAIJAN




BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Əmək Təşkilatı (ILO), Beynəlxalq Miqrasiya Təşkilatı (IOM), İnsan Hüquqları üzrə Ali Komissarlıq (OHCHR), BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin Təbii Fəlakət Risklərinin Azaldılması üzrə İdarəsi (UNDRR), BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE), BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin Əhali Fondu (UNFPA), BMT-nin Məskunlaşma Proqramı (UN Habitat), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK), BMT-nin Uşaq Fondu (UNICEF), BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO), BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC), BMT-nin Layihə Xidmətləri İdarəsi (UNOPS), BMT-nin Könüllülük Proqramı (UNV), BMT-nin Qadın Məsələləri üzrə Təşkilatı (UN Women) və Ümumdünya Səhiyyə Təşkilatı (WHO).

# Əsas inkişaf tərəfdaşları

2024-cü ildə BMT Azərbaycanda dayanıqlı inkişafın təşviqi məqsədilə müxtəlif maraqlı tərəflərlə - dövlət qurumları, vətəndaş cəmiyyəti təşkilatları, beynəlxalq təşkilatlar, özəl sektor, akademik qurumlar və media ilə tərəfdaşlıq edib.

Azərbaycan Hökuməti 2024-cü ildə BMT-nin əsas tərəfdaşlarından biri olmaqla, inkişaf təşəbbüslərinin, xüsusilə də siyasətlərin hazırlanması üzrə təşəbbüslərin həyata keçirilməsi üçün maliyyə, insan və inzibati resurslar təmin edib.

| | 1.1 | 2.1 | 2.2 | 3.1 | 4.1 | | 1.1 | 2.1 | 2.2 | 3.1 | 4.1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| BMT | ✓ | ✓ | ✓ | ✓ | ✓ | Takeda | | | | | ✓ |
| Azərbaycan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | Niderland | ✓ | | | | |
| Avropa İttifaqı | ✓ | ✓ | ✓ | ✓ | ✓ | Almaniya | | ✓ | | ✓ | |
| ABŞ | ✓ | ✓ | | ✓ | ✓ | Türkiyə | ✓ | ✓ | ✓ | ✓ | |
| gef | | | | ✓ | | Irish National Commission | | ✓ | | | |
| Birləşmiş Krallıq | ✓ | ✓ | | | | Association for Disaster Risk Reduction and Climate Change Adaptation | | ✓ | | | |
| GREEN CLIMATE FUND | | | | ✓ | | ATscale | | ✓ | | | |

**Nəticə 1.1:** İnklüziv artım və layiqli əmək
**Nəticə 2.1:** Güclü institutlar, keyfiyyətli dövlət və sosial xidmətlər
**Nəticə 2.2:** Məlumatlara əsaslanan qərar qəbulu və siyasətlər
**Nəticə 3.1:** Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinə qarşı mübarizə
**Nəticə 4.1:** Gender bərabərliyinə əsaslanan cəmiyyət

Vətəndaş cəmiyyəti təşkilatları (VCT-lər) inkişafın, insan hüquqlarının, gender bərabərliyinin və vətəndaş iştirakının təşviqi baxımından BMT-nin əsas tərəfdaşları olub. 2024-cü ildə BMT dayanıqlı iqtisadi inkişafı təşviq etmək və məsuliyyətli biznes təcrübələrini stimullaşdırmaq üçün özəl sektorla sıx tərəfdaşlıq edib. Belə ki, özəl sektor iş yerlərinin yaradılmasında, gəlirlərin təmin edilməsində və innovasiyaların təşviqində mühüm rol oynayır.

BMT-nin akademik qurumlarla işi siyasətlərin hazırlanmasını dəstəkləmək və təlim, mentorluq və şəbəkələşmə imkanları vasitəsilə gənclərin və mütəxəssislərin potensiallarını artırmaq üçün tədqiqat və təhlilləri inkişaf etdirib.

# 01 | Fəsil



# Ölkə və regionda baş vermiş əsas hadisələr

## 1.1. DİM-lərin icrasında irəliləyiş

Azərbaycanın 2030 Gündəliyinə doğru irəliləyişi iki əsas milli plan üzərində qurulub: *"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"* və *"2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"*. Bu sənədlər Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə sıx şəkildə uyğunlaşdırılıb. Bu təşəbbüsə dəstək olaraq, Mərkəzi Bank tərəfindən dayanıqlı maliyyələşdirmə mexanizmlərinin genişləndirilməsi və şaxələndirilməsi üçün *"Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi (2023-2026)"* qəbul edilib. Hökumət həmçinin, Minatəmizləmə üzrə 18-ci milli DİM-i qəbul edərək, bunu ölkədə dayanıqlı inkişafa nail olmaq üçün zəruri şərt kimi müəyyən edib. Milli DİM Çərçivəsi ilə bağlı olaraq, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UN ESCAP) Statistika Panelinin məlumatına (DİM-lər üzrə Milli Məlumat Portalı əsasında) əsasən, ölkə göstəricilərin 43 faizi üzrə irəliləyiş əldə edib, 6 faizi üzrə durğunluq, 18 faizi üzrə geriləmə qeydə alınıb, 33 faizi üzrə isə kifayət qədər məlumat mövcud olmayıb (aprel, 2024-cü il).

## 1.2. Sosial-iqtisadi icmal

Azərbaycanın iqtisadiyyatı əsasən neft ixracatı və irimiqyaslı investisiyalar hesabına yuxarı-orta gəlirli ölkə statusuna keçib, yoxsulluq 2001-ci ildəki 49 faiz səviyyəsindən 2023-cü ildə 5.2 faizə qədər azaldılıb. COVID-19-la əlaqəli iqtisadi enişdən sonra bərpa olunan iqtisadiyyatda davamlı artım müşahidə olunub. ÜDM 2024-cü ildə 4.1% artıb. Buna baxmayaraq, iqtisadiyyat hələ də neft qiymətlərinin dəyişkənliyi kimi xarici təsirlərə qarşı həssas olaraq qalır. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0.3 faiz, qeyri-neft və qaz sektorunda isə 6.2 faiz artıb.[1]

Bununla yanaşı, iqtisadiyyatda struktur disbalansı və dövlətə məxsus müəssisələrin (DMM-lər) üstünlük təşkil etməsi daxil

**Milli DİM çərçivəsinin prioritet göstəricilərinin 2015-2024-cü illərdə icra dinamikası**




**Aprel, 2024-cü il**

**43** irəliləyiş

**6** durğunluq

**18** geriləmə

**33** məlumat yoxdur

1 DSK, "2024-cü ildə ümumi daxili məhsul istehsalı", 16 yanvar 2025-ci il. https://stat.gov.az/news/index.php?lang=en&id=6156 (giriş tarixi 16 may 2025-ci il).

olmaqla, bəzi çətinliklər qalmaqdadır. Bu, qeyri-neft sektorlarının əksəriyyətində və kiçik və orta müəssisələrdə (KOM-lar) əmək məhsuldarlığının aşağı olmasına gətirib çıxarır. Bu problemlər iqtisadiyyatın daha da rəqabətqabiliyyətli olmasına mane olur. Gəlirlərin bərabərsizliyi və regionlararası bərabərsizlik davam edir: ÜDM-in dörddə üçündən çoxu Bakı aqlomerasiyasının payına düşür.

Davam edən islahatlar çərçivəsində, bazar iştirakçılarını ədalətsiz rəqabət və inhisarçılıqdan qorumaq məqsədilə 2023-cü ilin dekabr ayında yeni "Azərbaycan Respublikası Rəqabət Məcəlləsi" qəbul olunub."[2] Orta inflyasiya dərəcəsi 2023-cü ildəki 8.8%-lə müqayisədə 2024-cü ildə 2.2% təşkil etməklə, tək rəqəmli səviyyədə qalıb.[3]

**Orta inflyasiya dərəcəsi**

**2023-cü ildəki 8.8%-lə**

**müqayisədə 2024-cü ildə 2.2%**

**təşkil etməklə, tək rəqəmli səviyyədə qalıb.**

İnsan inkişafı sahəsində göstəricilər yaxşılaşmağa davam etsə də, hələ də nəzərəçarpan fərqlər müşahidə olunur. Ən son İnsan İnkişafı İndeksi (HDI) göstəricisi 2022-ci ildə 0.76-ya yüksələrək, Azərbaycanı yüksək insan inkişafı kateqoriyasına daxil edib (193 ölkə arasında 89-cu yer). Bu, əvvəlki illə müqayisədə altı pillə irəliləyiş demək olsa da, 2019-cu il sıralamasından hələ də aşağıdır. Bərabərsizliklər nəzərə alındıqda, Bərabərsizliyə Uyğunlaşdırılmış HDI 0.707-yə düşür. 2024-cü il üzrə Qlobal Gender Fərqi İndeksinə əsasən, Azərbaycan 146 ölkə arasında 103-cü yerdə qərarlaşıb. Bu, 2023-cü illə müqayisədə altı pillə geriləmə deməkdir. Sub-indekslər sağlamlıq və sağ qalma (146-cı yer), siyasi hüquq və imkanların genişləndirilməsi (133-cü yer) və təhsil səviyyəsi (2023-cü ildəki 54-cü yerdən 2024-cü ildə 94-cü yerə geriləmə) sahələrində ciddi gender bərabərsizlikləri olduğunu göstərir.

Erkən Uşaqlıq Dövründə İnkişaf İndeksi (ECDI) ailə şəraitinin imkanlara necə təsir etdiyini göstərir: ölkə üzrə orta göstərici 72 faiz təşkil etsə də (2023),[4] ana təhsilinin aşağı olması, kənd yerlərində yaşama, ailə gəlirlərinin aşağı olması və əlillik statusu kimi amillər nəzərə alındıqda bu göstərici 44 faizə düşür. Anası ali təhsilli, ailəsi yüksək gəlirli və şəhər yerlərində yaşayan uşaqlar arasında isə bu göstərici 90 faizə çatır.[5]

Azərbaycan insan kapitalı sahəsində nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq, Dünya Bankının İnsan Kapitalı İndeksi (HCI) göstəricilərinə əsasən, 2010-cu illə (0.50) 2020-ci il (0.58) arasında dünyanın ən çox irəliləyiş əldə edən ölkələrindən biri olub.[6] Bununla belə, Azərbaycan sağlamlıq və bacarıqlar sahəsində regional həmkarları ilə müqayisədə geridə qalır: tənzimlənmiş regional ECA-HCI indeksinə əsasən, Azərbaycanda doğulan uşaqlar yüksək keyfiyyətli təhsil və tam sağlamlıq şəraitində əldə edə biləcəkləri məhsuldarlığın yalnız 38 faizini reallaşdıra bilirlər.[7]

## 1.3. Münaqişədən sonrakı bərpa

Azərbaycan və Ermənistan arasındakı sülh prosesi tədricən ikitərəfli formata keçməkdədir. 2024-cü ilin sentyabr ayına qədər "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş"in 10 versiyası mübadilə edilib, lakin tərəflər arasında fikir ayrılıqları hələ də qalmaqdadır. "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış üzrə I Dövlət Proqramı" (2022-2026) çərçivəsində münaqişədən sonrakı bərpa əsas prioritet olaraq qalır. Humanitar minatəmizləmə fəaliyyəti (2023-cü ilin may ayında 18-ci milli DİM kimi rəsmiləşdirilib) isə davamlı inkişaf üçün əsas şərt sayılır. 2025-ci il yanvarın 13-nə olan məlumata görə, 10,397 məcburi köçkün[8] (52%-i qadınlar) geri qayıdıb və 32 yaşayış məntəqəsində (onlardan üçü şəhərdir) tikinti işləri davam edib.

Qadınların, gənclərin və əlilliyi olan şəxslərin iqtisadi bərpa tədbirlərində fəal iştirakını təmin etmək üçün, dayanıqlı reinteqrasiya prosesi infrastruktur, təhsil və səhiyyə sahələrinə əhəmiyyətli investisiyaları, qısamüddətli və uzunmüddətli dolanışıq imkanlarının yaradılmasını, müvafiq qrupların zəif təmsil olunduğu sahələrə investisiyaları, bacarıqlarda uyğunsuzluqların və zəifliklərin azaldılmasını tələb edir. Bununla belə, keçmiş məcburi köçkünlər, xüsusilə bu statuslu qadınlar arasında məşğulluq hələ də məhdud səviyyədədir (kişilərin 58%-i ilə müqayisədə, qadınların isə yalnız 27%-i işləyir[9]). Bu, əsasən ənənəvi gender rolları, o cümlədən məişət və qayğıya ehtiyacı olan ailə üzvlərinə qulluqla bağlı vəzifələrin qeyri-bərabər bölüşdürülməsi ilə bağlıdır. Bundan əlavə, su və tullantıların idarə edilməsi sistemlərinin yaxşılaşdırılması yolu ilə keçmiş məcburi köçkünlərin qayıtdıqları ərazilərə axınını dayanıqlı şəkildə idarə edə bilmək məqsədilə, uzunmüddətli həllər ekoloji dayanıqlığı və iqlim dəyişmələrinə davamlılığı nəzərə almalı, Azərbaycanın "xalis sıfır emissiya" üzrə gələcəyə baxışı və "yaşıl enerji zonası"na dair planları ilə uzlaşmalıdır.



Xaçmaz rayonunun İdrisoba kəndindən olan Məmmədəliyevlər ailəsi fındıq istehsalının yaxşılaşdırılması layihəsindən bəhrələnənlər sırasındadır.
Foto: FAO/Cavid Qurbanov/2024

2 KPMG, "Azərbaycan Respublikasında yeni Rəqabət Məcəlləsi qəbul edilib", yanvar 2024-cü il. https://kpmg.com/az/az/home/insights/2024/02/new-competition-code.html (giriş tarixi 16 may 2025-ci il).
3 DSK, "Makroiqtisadi göstəricilər və ölkənin sosial inkişafı (yanvar-mart 2025-ci il)" 15 aprel 2025-ci il. https://stat.gov.az/news/macroeconomy.php?lang=en&page=2 (giriş tarixi 16 may 2025-ci il).
4 DSK və UNICEF, Azərbaycan Respublikası Çox Göstəricili Klaster Sorğusu 2023: Sorğunun Nəticələri Hesabatı (Bakı, 2024-cü il). https://mics.unicef.org/sites/mics/files/2024-10/Azerbaijan%202023%20MICS%20SFR_English.pdf.
5 ESCAP-ın Çox Göstəricili Klaster Sorğusunun nəticələrinə əsaslanan LNOB ("heç kəsi kənarda qoymamaq") təhlili.
6 HCI sağlamlıq və təhsil göstəricilərini birləşdirərək, bu gün doğulan bir uşağın 18 yaşına qədər əldə edə biləcəyi insan kapitalını 0-dan 1-ə qədər olan miqyasda ölçən bir göstəricidir. Daha yüksək dəyərlər daha yüksək gözlənilən insan kapitalını ifadə edir.
7 Sara Johansson de Silva və başqaları, Azərbaycan: İnsan Kapitalının İcmalı (Vaşinqton, D.C., Dünya Bankı, 2022). https://documents1.worldbank.org/curated/en/099082001272341155/pdf/P1735301c30e9a0b1efa3147da1823d147928a86e81a.pdf
8 Ülkər Xaspoladova, "Yeni ilin ilk köçü", 14 yanvar 2025-ci il. https://www.azerbaijan-news.az/az/posts/detail/yeni-ilin-ilk-kocu-1736800515/349804 (giriş tarixi 16 may 2025-ci il).
9 Sarah Dreier və başqaları, Azərbaycanda məcburi köçkünlər: yaşayış vasitələri, xidmətlər və niyyətlər (Vaşinqton, D.C., Dünya Bankı, 2023-cü il). https://documents1.worldbank.org/curated/az/099062923164533460/pdf/P1781240984ec608108c7f0164f8d0b3c98.pdf.

# 1.4. Ətraf mühit və iqlim dəyişmələri ilə mübarizə

Azərbaycanın 2024-cü ilin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyasına (COP29) ev sahibliyi etməsi ölkənin “yaşıl keçid”ə və fəal iqlim diplomatiyasına sadiqliyini nümayiş etdirib. COP29 Sədrliyinin təşəbbüslərinin bir çoxu geniş dəstək qazanıb, onlardan 12-si BMT sistemi ilə əməkdaşlıq şəraitində irəliləndirilib. Konstitusiya təminatlarına və “Ətraf mühitin mühafizəsi haqqında” Qanuna əsaslanan ətraf mühitin idarə edilməsi “Azərbaycan 2030” Gündəliyi çərçivəsində iqtisadi planlaşdırmaya inteqrasiya olunub. Yaşıl iş yerlərinin yaradılmasını, davamlı kənd təsərrüfatını və ekoloji cəhətdən təmiz sənayeni təşviq edən təşəbbüslər elektrikli nəqliyyat vasitələri üçün vergi güzəştləri və qeyri-neft investisiyalarını dəstəkləyən tədbirlərlə paralel şəkildə irəliləndirilir. Hökumət 2030-cu ilə qədər bərpa olunan enerji gücünün 30%-ə çatdırılmasını və 1990-cı illə müqayisədə 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40% azaldılmasını, eyni zamanda azad edilmiş ərazilər üçün Milli Uyğunlaşma Planının[10] və “xalis sıfır emissiya” gələcəyə baxışının irəliləndirilməsini qarşıya məqsəd qoyub.

Bu səylərə baxmayaraq, enerji balansında hələ də mədən yanacaqları üstünlük təşkil edir (ilkin enerjinin 98%-i və elektrik enerjisinin 90%-dən çoxu[11]) və sənaye fəaliyyəti, urbanizasiya və qeyri-bərabər paylanmış məhdud resurslar, o cümlədən su və torpaq üzərində artan rəqabət səbəbindən ətraf mühitə təzyiqlər yüksək olaraq qalır. Bu resurslardan istifadə və idarəetmədəki qeyri-səmərəlilik vəziyyəti daha da çətinləşdirir. Su resurslarının istifadəsi və idarə olunmasında mövcud problemlərin həlli məqsədilə, Azərbaycan 10 oktyabr 2024-cü ildə “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nı qəbul edib. Bu sənəd 2040-cı ilə qədər sudan istifadənin səmərəliliyini artırmaq üçün hərtərəfli bir plan təqdim edir. Yağıntılarda dəyişkənliyin artması və temperaturun yüksəlməsi regional bərabərsizlikləri dərinləşdirərək və qalan resursların da tükənməsinə səbəb olaraq, yağışla qidalanan kənd təsərrüfatı və həssas icmalar üçün ciddi risklər yaradır. Azərbaycan 2025-ci il üçün INFORM Risk İndeksi üzrə “yüksək risk” kateqoriyasına daxil edildiyindən, fəlakətlərə hazırlıq və risklərin azaldılması potensiallarının gücləndirilməsinə təcili ehtiyac var.

## Hökumətin məqsədi:




| | |
|---|---|
| **Ərazi** | 86,600 kv.km |
| **Əhali, 2024**[12] | 10.2 milyon |
| **Adambaşına düşən ÜDM, 2024** | 7,284 ABŞ dolları |
| **Dövlət büdcəsi xərcləri, 2024** | sosial müdafiə üzrə 12.4%<br>səhiyyə üzrə 5.1%<br>təhsil üzrə 12.4% |
| **İşsizlik səviyyəsi, 2023** | ümumi 5.6%, qadınlar üzrə 6.5%, kişilər üzrə 4.8% |
| **Gözlənilən ömür uzunluğu, 2023** | ümumi 76 yaş, qadınlar üzrə 78.4 yaş, kişilər üzrə 73.5 yaş |
| **Milli yoxsulluq səviyyəsi, 2023** | ümumi 5.2%, qadınlar üzrə 4.8%, kişilər üzrə 5.3% |
| **Ana ölümü səviyyəsi (hər 100,000 diri doğulana), 2023** | 29.3 |
| **Körpə ölümü səviyyəsi (hər 1,000 diri doğulana), 2023** | ümumi 18,1 nəfər,<br>qadınlar üzrə 16.9 nəfər,<br>kişilər üzrə 19.2 nəfər |
| **Təhsildə iştirak əmsalı, 2024** | məktəbəqədər təhsil üzrə 34% (xalis)<br>ibtidai və orta təhsil üzrə 73% (ümumi)<br>ali təhsil üzrə 16.6% (15 yaşdan yuxarı olanlar) |
| **Rəhbər vəzifələrdə olan qadınların xüsusi çəkisi, 2023** | 42.3% |
| **İqtisadi Azadlıq İndeksi, 2025** | Bal: 62.5<br>Qlobal mövqeyi: 75/184<br>Regional mövqeyi 36/44 |
| **DİM İndeksi, 2024** | Bal: 72.2<br>Qlobal mövqeyi: 63/166 |
| **Qlobal Gender Fərqi İndeksi, 2024** | Bal: 0.685<br>Qlobal mövqeyi: 103/146 |
| **Ətraf mühit üzrə icra indeksi, 2024** | Bal: 40.5<br>Qlobal mövqeyi: 121/180 |



Foto: https://cop29.az/en/media-hub/media-gallery/22

10 UNECE, Ətraf Mühit Fəaliyyətinin İcmalları: Azərbaycan. Üçüncü İcmal (Cenevrə, Birləşmiş Millətlər Təşkilatı, 2023-cü il). https://www.un-ilibrary.org/content/books/9789213584590/read.
11 DSK, “Göstərici 7.2.1 Bərpa olunan enerjinin ümumi yekun enerji istehlakında payı”. https://sdg.azstat.gov.az/en/indicators/374/ (giriş tarixi 16 may 2025-ci il).
12 “Azərbaycan Respublikasının Əhalisi”, 2025-ci il. https://president.az/az/pages/view/azerbaijan/population#number_of_population (giriş tarixi 19 may 2025-ci il).

# BMT-nin inkişaf sisteminin milli inkişaf prioritetlərinə dəstəyi

## 2.1. Əməkdaşlığa dair Çərçivə Sənədinin nəticələrinin icmalı

2021-2025-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (ÇS) dörd prioritet sahəyə və beş nəticəyə əsaslanmaqla, BMT ilə Azərbaycan arasında birgə fəaliyyət üçün əhatəli yol xəritəsi müəyyən edir:

i. İnklüziv artım və layiqli əmək

ii. Güclü institutlar, keyfiyyətli dövlət və sosial xidmətlər

iii. Məlumatlara əsaslanan qərar qəbulu və siyasətlər

iv. Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinə qarşı mübarizə

v. Gender bərabərliyinə əsaslanan cəmiyyət

2023-cü ildə, Azərbaycandakı BMT sistemi milli maraqlı tərəflərlə strateji əməkdaşlıq çərçivəsində, *"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"* və digər əsas milli çərçivə sənədləri və inkişaf strategiyaları ilə uzlaşan siyasət islahatlarını sürətləndirmək və institusional potensialı gücləndirmək üçün səylərini artırıb. Eyni zamanda, yerli icmaları birbaşa cəlb edərək, onların xüsusi ehtiyac və çətinliklərinin həllinə yönələn yerli səviyyədə məqsədyönlü dəstək tədbirləri həyata keçirilib. "Yuxarıdan-aşağı siyasət" lə "aşağıdan-yuxarı" icma tədbirlərinin sintezindən ibarət olan bu inteqrasiya olunmuş yanaşma BMT-in heç kəsin kənarda qalmamasını təmin edən hərtərəfli və inklüziv inkişaf gündəliyinə sadiqliyini nümayiş etdirir.

# 2024 - cü il üzrə əsas nəticələr

**18 000** uşaq (8600 nəfəri qız) icma əsaslı erkən təhsil xidmətlərindən faydalanıb

**67** məktəbdə (22 rayonda) inklüziv təhsil təmin olunub

**4 300+** şəxsə səhiyyə xidmətləri göstərilib

**11 600** müəllim və pedaqoqa inklüziv təhsil və uşaqların müdafiəsi üzrə təlim keçilib

**4 600** səhiyyə işçisinə immunlaşdırma, erkən uşaqlıq dövründə inkişaf və iqlimlə sağlamlıq arasındakı əlaqələr üzrə təlimlər keçilib

**5 100** uşaq + **1 300** qadına psixososial dəstək göstərilib

**10 000+** uşaq və onların ailə üzvü partlayıcı sursatların riskləri barədə maarifləndirilib

**6 300+** uşaq peyvənd ilə təmin edilib

**13 000** nəfər ~**74%** gənclər gender əsaslı zorakılığın, erkən nikahların və zərərli davranışların qarşısının alınması barədə məlumatlandırılıb

**5 500** nəfərə hüquqi yardım göstərilib

**3 500** qadına

**2 100+** gəncə karyera planlaşdırması və əmək fəaliyyətinə hazırlıqla bağlı dəstək göstərilib

**19** siyasət sənədinin və rəhbər çərçivə sənədinin hazırlanmasına və yekunlaşdırılmasına dəstək göstərilib

| | |
|---|---|
| İnklüziv artım | 4 |
| İqlim, ətraf mühit və kənd təsərrüfatı | 5 |
| Sosial müdafiə və sağlamlıq | 5 |
| Gender və inklüzivlik | 5 |

**1 100+** dövlət qurumu əməkdaşları iqlim dəyişmələrinə davamlılıq, kənd təsərrüfatı, idarəçilik və hüquqların qorunması sahələrində maarifləndirilib

**4 900** nəfərə (2 500 qadına) kənd təsərrüfatı və gəlir əldə etmə bacarıqları üzrə təlim keçilib

## 19 siyasət sənədinin və rəhbər çərçivə sənədinin hazırlanmasına və yekunlaşdırılmasına dəstək verdi:

| İnklüziv artım | İqlim, ətraf mühit və kənd təsərrüfatı | Sosial müdafiə və səhiyyə | Gender və inklüzivlik |
|---|---|---|---|
| Sosial müəssisələr üçün siyasət və ekosistem tövsiyələri<br><br>Kənd təsərrüfatı kooperativləri üzrə siyasət çərçivəsi<br><br>Torpaqların konsolidasiyası strategiyası<br><br>Torpaq bankçılığı strategiyası | Milli uyğunlaşma planı<br><br>Stokholm Konvensiyası çərçivəsində milli icra planı<br><br>Məhsulun ekoloji izi üzrə yol xəritəsi<br><br>Pestisid tullantılarının idarə olunması üzrə fəaliyyət planı<br><br>Bitki mühafizəsi üzrə fövqəladə tədbirlər planı | Zoonoz xəstəliklərin qarşısının alınması və nəzarəti üzrə milli strategiya (2025–2030)<br><br>Böhrana davamlı sosial müdafiə (SRSP) üzrə çərçivə sənədi<br><br>SRSP üzrə maliyyə strategiyası<br><br>Əlilliyi olan şəxslər üçün köməkçi vasitələrin standartları üzrə çərçivə sənədinin layihəsi<br><br>Uşaqların immunizasiyası üzrə təlimat | Gender əsaslı zorakılıq üzrə siyasət çərçivəsi (2025–2029)<br><br>Məcburi köçkünlərin gender aspektlərini nəzərə alan reinteqrasiyası planı<br><br>Genderə həssas və inklüziv dövlət xidmətləri üzrə təlimat<br><br>Genderə həssas penitensiar idarəetmə üzrə təlimat<br><br>Gender əsaslı zorakılıq hallarının idarə olunması üzrə standart əməliyyat prosedurları |

### Əməkdaşlığa dair Çərçivə Sənədinin nəticə göstəriciləri üzrə irəliləyiş qrafiki[13]

| Göstəricilər | İlkin vəziyyət | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| İqtisadiyyatda mikro, kiçik və orta müəssisələrin (MKOM) xüsusi çəkisi | 16.7% (2020) | 16.4% | 13.9% | mikro: 6.8%<br>kiçik: 2.9%<br>orta: 8.3% |
| **DİM 8.6.1** İşləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərin (15-24 yaşda olan) xüsusi çəkisi | 23% (2017) | 23% (2017) | cəmi: 19.8%<br>qadınlar: 49.7%<br>kişilər: 50.3% | cəmi: 19.5%<br>qadınlar: 20.6%<br>kişilər: 18.6% |
| **DİM 8.5.1** İşçilərin orta saathesabı əmək haqqı | cəmi: 5 AZN<br>qadınlar: 4 AZN<br>kişilər: 5.6 AZN<br>(2020) | cəmi: 4.9 AZN<br>qadınlar: 3.8 AZN<br>kişilər: 5.6 AZN | cəmi: 5.6 AZN<br>qadınlar: 4.4 AZN<br>kişilər: 6.3 AZN | cəmi: 6.2 AZN<br>qadınlar: 5.1 AZN<br>kişilər: 7 AZN |
| **DİM 3.4.1** Ürək-damar xəstəlikləri, xərçəng, diabet, tənəffüs yollarının xroniki xəstəliklərindən ölüm səviyyəsi (hər 100000 nəfərə) | cəmi: 449.1<br>qadınlar: 436.4<br>kişilər: 462<br>(2019) | cəmi: 557.5<br>qadınlar: 550.9<br>kişilər: 564.4 | cəmi: 448.3<br>qadınlar: 426.8<br>kişilər: 469.9 | cəmi: 449.2<br>qadınlar: 426.6<br>kişilər: 471.9 |
| **DİM 1.a.2** Ümumi dövlət xərclərində təhsil, səhiyyə və sosial müdafiəyə çəkilən xərclərin xüsusi çəkisi | cəmi: 32.4%<br>səhiyyə: 3.4%<br>təhsil: 8.6%<br>sosial müdafiə və sosial təminat: 20.4% (2019) | cəmi: 40.6%<br>səhiyyə: 5.7%<br>təhsil: 11.5%<br>sosial müdafiə və sosial təminat: 23.4% | cəmi: 38.4%<br>səhiyyə: 4.3%<br>təhsil: 11.6%<br>sosial müdafiə və sosial təminat: 22.5% | cəmi: 40.9%<br>səhiyyə: 4.3%<br>təhsil: 11.1%<br>sosial müdafiə və sosial təminat: 25.5% |
| **DİM 17.18.1** DİM-lərin monitorinqi üçün statistik potensial göstəricisi | 34.8% (2020) | 43.3% | 45.2% | 48.8% (2023) |
| **DİM 13.2.1** Azərbaycan milli səviyyədə müəyyən olunmuş töhfələr, uzunmüddətli strategiyalar, milli uyğunlaşma planları, strategiyaları barədə hesabat verir | Xeyr | | | Bəli |
| **DİM 15.3.1** Deqradasiyaya məruz qalmış torpaq sahələrinin ümumi torpaq sahəsində xüsusi çəkisi | 9.6% (2020) | 11.4% | 12.9% | Məlumat yoxdur |
| **DİM 6.4.1** Sudan istifadə səmərəliliyinin dəyişməsinin dinamikası (USD/m³) | 3.73 (2020) | 4.49 | 6.57 | 6.17 |
| **DİM 7.3.1** İlkin enerji istehlakının ÜDM-ə nisbəti kimi hesablanan enerji tutumu (kq neft ekvivalenti/1000 manat) | 316.3 (2020) | 316.1 | 320.9 | 320.5 |
| Əhali arasında yeni doğulanların cins nisbəti | hər 100 qıza 114 oğlan (2019/2020) | hər 100 qıza 116 oğlan | hər 100 qıza 112 oğlan | |
| **DİM 5.5.2** Rəhbər vəzifələr tutan qadınların xüsusi çəkisi | 34.6% (2020) | 35.5% | 35.4% | 36.4% |
| Azərbaycanda gender əsaslı zorakılığın aradan qaldırılması üçün yaradılmış yerli və milli mexanizmlərin sayı | 0 | 2 | 2 | |
| **DİM 5.5.1 (a)** Milli parlamentlərdə və (b) yerli hökumətlərdə qadınlar tərəfindən tutulan yerlərin xüsusi çəkisi | 18.2% (2019) | 18.5% | 18.6% | 18.1% |
| **DİM 3.7.2** Yeniyetmələr (15-19 yaşda olan) arasında doğum səviyyəsi, həmin yaş qrupunda olan hər 1000 nəfər qadına | cəmi: 39.6<br>şəhər: 23.2<br>kənd: 58.1<br>(2020) | cəmi: 29.7<br>şəhər: 16.7<br>kənd: 44.7 | cəmi: 37.3<br>şəhər: 20.6<br>kənd: 56.9 | cəmi: 33.4<br>şəhər: 18.8<br>kənd: 50.6 |

13 Məlumatları olan göstəricilər təqdim olunur. Ən son məlumatlar 2023-cü ilə aiddir, belə ki, *2024-cü ildə DİM-lərin icrasında irəliləyiş üzrə Milli Hesabat 2023-cü* ilə qədər olan məlumatları əks etdirir.

## Gender bərabərliyinin fəaliyyətlərə inteqrasiyası (GEM markeri)

BMT-nin Ölkə üzrə İdarə Heyətinin "Gender bərabərliyinin fəaliyyətlərə inteqrasiyası" mexanizminin (GEM) məqsədi əməkdaşlığa dair çərçivələrdə gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması sahələrinə ayrılan resursları izləməkdir[14].

2021–2024-cü illər ərzində BMT-nin Azərbaycandakı proqramlarında gender bərabərliyinin inteqrasiyası sahəsində ardıcıl irəliləyiş müşahidə olunub. 269 fəaliyyətin 60 faizi genderə fokuslanıb, onların əksəriyyəti Marker 2 (gender bərabərliyi / qadınların səlahiyyətlərinin artırılması mühüm məqsəddir) altında yer alıb. Maliyyə axınlarında da uyğun dəyişikliklər baş verib – Marker 2 üzrə xərclər artaraq 2022 və 2024-cü illərdə 47 faizə çatıb. Marker 3 (gender bərabərliyi / qadınların səlahiyyətlərinin artırılması əsas məqsəddir) üzrə isə 2024-cü ildə cüzi artım müşahidə olunsa da, bu istiqamət ən az maliyyələşdirilən olaraq qalıb. Marker 0 (gender bərabərliyinə / qadınların səlahiyyətlərinin artırılmasına töhfə verməsi gözlənilmir) üzrə xərclər 2023-cü ildəki 28 faizdən 2024-cü ildə 15 faizə enib ki, bu da resursların gender məqsədləri ilə daha yaxşı uyğunlaşdırıldığını göstərir.

2021-2025-ci illərdə fəaliyyətlərin sayı




2021-2024-cü illərdə xərclər (ABŞ dolları)




İllər üzrə faiz nisbəti




## 2024-cü ildə BMT-nin fəaliyyət göstərdiyi ərazilər[15]






COP29 ərəfəsində gənc qızlar Lənkəran rayonunda üç günlük "Qızlar İqlim Fəaliyyətində" düşərgəsinə toplaşaraq planeti qorumaq və öz icmalarında dəyişikliklərə rəhbərlik etmək yollarını araşdırıb.
Foto: UNFPA/2024

14 GEM proqram tədbirlərinin gender bərabərliyinə planlaşdırılan töhfəsini göstərmək üçün dörd ballıq (0-3) kodlaşdırma şkalasından istifadə edir.
15 Ətraflı məlumat üçün https://uninfo.org/ saytına nəzər yetirin.

# DİM-lərə töhfə

## Büdcədə payı

| | 1 NO POVERTY | 2 ZERO HUNGER | 3 GOOD HEALTH AND WELL-BEING | 4 QUALITY EDUCATION | 5 GENDER EQUALITY | 6 CLEAN WATER AND SANITATION | 7 AFFORDABLE AND CLEAN ENERGY | 8 DECENT WORK AND ECONOMIC GROWTH | 9 INDUSTRY, INNOVATION AND INFRASTRUCTURE |
|---|---|---|---|---|---|---|---|---|---|
| Xərc (ABŞ dolları) | 820 841 | 2 426 490 | 3 812 580 | 3 414 878 | 3 329 378 | 46 620 | 1 750 | 2 037 663 | 193 549 |
| Ümumi xərclərdə xüsusi çəkisi (%-lə) | 3.5% | 10.3% | 16.2% | 14.5% | 14.2% | 0.2% | 0.0% | 8.7% | 0.8% |

| | 10 REDUCED INEQUALITIES | 11 SUSTAINABLE CITIES AND COMMUNITIES | 12 RESPONSIBLE CONSUMPTION AND PRODUCTION | 13 CLIMATE ACTION | 14 LIFE BELOW WATER | 15 LIFE ON LAND | 16 PEACE, JUSTICE AND STRONG INSTITUTIONS | 17 PARTNERSHIPS FOR THE GOALS |
|---|---|---|---|---|---|---|---|---|
| Xərc (ABŞ dolları) | 2 364 960 | 790 120 | 47 768 | 1 403 277 | 0 | 334 474 | 2 193 050 | 308 361 |
| Ümumi xərclərdə xüsusi çəkisi (%-lə) | 10.1% | 3.4% | 0.2% | 6.0% | 0% | 1.4% | 9.3% | 1.3% |

## Fəaliyyətlərdə payı



# COP29 və Azərbaycandakı BMT sistemi: İqlim dəyişikliyinə qarşı mübarizədə birgə öhdəlik

Azərbaycan 2024-cü ilin noyabrında COP29-a ev sahibliyi edərək, iqlim dəyişikliyinə qarşı mübarizəni gücləndirmək üçün qlobal liderləri və müzakirə iştirakçılarını bir araya gətirib. COP29 çərçivəsində rəsmi danışıqlarla yanaşı keçirilən paralel tədbirlər və dialoqlar inklüziv və dayanıqlı həll yolları üçün əməkdaşlıq və tərəfdaşlıqları gücləndirib.

- COP29 Sədrliyinin BMT-nin əlaqələndirilmiş dəstəyi üçün müraciətindən sonra, BMT Baş Katibinin birinci müavini tərəfindən BMT-nin COP29 üzrə Qlobal İşçi Qrupu təsis olunub. Bu işçi qrupu Baş Katibin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri və BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisinin həmsədrliyi ilə fəaliyyət göstərib. BMT-nin 25-ə yaxın qurumunun iştirak etdiyi İşçi Qrupu COP29 zamanı elan edilmiş 14 Sədrlik Təşəbbüsündən 12-nə əsaslı dəstək göstərib. İşçi Qrupu beynəlxalq miqyaslı konfranslara ev sahibliyi edən hökumətlərə dəstək məqsədi daşıyan qurumlararası əməkdaşlıq üzrə qabaqcıl təcrübə nümunəsi kimi qiymətləndirilib.
- Azərbaycandakı BMT sisteminin COP29 üzrə Fəaliyyət Strategiyası çərçivəsində, BMT COP29 sədrliyi, hökumət, özəl sektor, vətəndaş cəmiyyəti, gənclər, inkişaf tərəfdaşları, elmi ictimaiyyət, media və digər tərəflərlə əməkdaşlıq yolu ilə iqlim dəyişikliyi barədə maarifləndirmə və bütün ölkə ərazisində iqlim dəyişikliyə üzrə mübarizəyə səfərbərlik məqsədilə Bakıda və bəzi rayonlarda "29 İqlim Söhbəti: COP29-a gedən yol" adlı silsilə tədbirlər təşkil edib. Rəqəmsal innovasiyalar, ədalətli keçid, reproduktiv sağlamlıq və yaşıl maliyyə kimi mövzular ətrafında təşkil olunmuş bu silsilə tədbirlər praktik həllərin işlənib hazırlanması üçün hökumət nümayəndələrini, beynəlxalq təşkilatları, vətəndaş cəmiyyətini və özəl sektor liderlərini bir araya gətirib.
- Məzmunlu müzakirələri və həll yollarını təşviq etmək məqsədilə təşkil olunmuş **Azərbaycandakı BMT sisteminin COP29 pavilyonu** iqlim dəyişikliyinin qadınlara, uşaqlara, qaçqınlara, miqrantlara və digər həssas qruplara təsirini araşdırmaq üçün 25-ə yaxın tədbirə ev sahibliyi edib. Tanınmış çıxışçılar iştirakçılarla, xüsusən də gənclərlə iqlim liderliyi mövzusunda dərin müzakirələr aparıb.
- Pavilyonun əsas elementlərindən biri vacib iqlim məsələləri üzrə ekspertlər və liderlərlə yüksək səviyyəli müsahibələrdən ibarət olan **"4 İqlim Dialoqu"** olub. Bu müzakirələrdə Azərbaycan və digər bölgələr üçün dayanıqlı inkişaf strategiyaları və praktik davamlılıq tədbirləri barədə dəyərli fikirlər təqdim olunub. Bundan əlavə, "İqlimin təsiri" və "Dünya Uşaqlar Günü" adlı foto sərgilər keçirilib.
- Azərbaycan COP29 çərçivəsində BMT ilə birlikdə iqlim dəyişikliyinə qarşı mübarizəni və dayanıqlı inkişafı gücləndirmək üçün bir sıra vacib təşəbbüslər təqdim edib: "Fermerlər üçün Bakı İqlim Harmoniyası Təşəbbüsü" kənd təsərrüfatında, qida sistemlərində və su idarəçiliyində iqlim dəyişikliyinə uyğunlaşmanı gücləndirməyi hədəfləyir; 45 hökumət tərəfindən təsdiq edilmiş "Davamlı və Sağlam Şəhərlər üçün Çoxsahəli Fəaliyyət İstiqamətləri (MAP)" iqlim dəyişmələrinə davamlılığın, ictimai səhiyyənin və şəhər dayanıqlığının milli siyasətlərə inteqrasiyası üçün çərçivə sənədini təmin edir. COP29-da təqdim edilmiş "Zoonoz xəstəliklərin qarşısının alınması və nəzarətin gücləndirilməsinə dair 2025-2030-cu illər üzrə Milli Strategiya" Azərbaycanın qlobal sağlamlıq təhlükəsizliyi və iqlim dəyişmələrinə davamlılıqla bağlı öhdəliyini bir daha təsdiq edib. Paralel olaraq, maraqlı tərəfləri ekoloji və iqtisadi hədəflərin uzlaşdırılması fəaliyyətinə cəlb edən və ətraf mühitlə bağlı beynəlxalq öhdəliklərə uyğunluğu qiymətləndirən "Ətraf mühit üzrə fəaliyyətin icmalı" təqdim olunub.
- Bundan başqa, Azərbaycan "Uşaqlar, Gənclər və İqlim Fəaliyyəti Bəyannaməsi"ni imzalayaraq, iqlim siyasətində uşaqları ön plana çəkmək öhdəliyi götürüb. Hökumət həmçinin, Uşaqların Ətraf Mühit ilə bağlı Sağlamlığı Qlobal Əməkdaşlığına qoşularaq, Azərbaycanın yerli və beynəlxalq platformalarda uşaqların ətraf mühitlə bağlı sağlamlıq ehtiyaclarını prioritetləşdirmək üçün yaradılmış bu təşəbbüsə üzv olan dünyada doqquzuncu ölkə olmasını təmin edib.



COP28-in prezidenti Sultan Əl Cabir prezident səlahiyyətlərini COP29-un prezidenti Muxtar Babayevə təhvil verir.
Foto: Kiara Vort/BMT İqlim Dəyişikliyi/2024




COP29-da BMT- Azərbaycan pavilyonundan kadrlar
Foto: BMT RƏO/Məmməd Əliyev/2024

# Ümid hekayələri

## Gənclər COP29-da

**“Bir düşərgənin həyatımı dəyişə biləcəyini heç vaxt təsəvvür etməzdim,”**

- deyə Bakıdan olan 17 yaşlı Dunay Mahmudova bildirir. “Qızlar İqlim Fəaliyyətinin Mərkəzində düşərgəsində qadınların iqlim dəyişikliyinə qarşı mübarizədə oynadığı vacib rol və bizim bu problemin həllinin bir parçası ola biləcəyimiz haqqında çox şey öyrəndim. Bu düşərgə mənə özümə və fərqlilik yaratmaq bacarığıma inanmağı öyrətdi.”

Dunayın həvəsi və qətiyyəti diqqət cəlb edir və o, BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyi tərəfindən COP29-da könüllü kimi seçilir. Bu tədbir onun gənc həyatında dönüş nöqtəsinə çevrilir. “COP29-da gənclərin, xüsusilə də qadınların baxışlarının dayanıqlı gələcək üçün həllər formalaşdırmaqda vacib rol oynadığını başa düşdüm.”




Foto: BMT-nin Əhali Fondu/2024

Əfqanıstandan olan qaçqın və Bakıda keçirilən COP29-un məğrur iştirakçısı Müctəba ilə tanış olun. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində biznes informatika ixtisası üzrə təhsil alan Müctəba 2019-cu ildən ailəsi ilə birlikdə Azərbaycanda yaşayır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının dəstəyi ilə həyata keçirilən #DAFIScholarship proqramı sayəsində o, 2022-ci ildən bəri öz təhsil arzularını reallaşdıra bilir.

Bu ilin noyabr ayında Müctəba Atletlər Kəndinin könüllüsü kimi COP29-a qoşulub. O, hər gün iştirakçıları gülərüzlə qarşılayır, tədbir haqqında məlumat verir, nəqliyyatla bağlı istiqamətləri izah edir və şəhəri kəşf etmək üçün faydalı tövsiyələr paylaşır. Müctəba üçün COP29-da könüllülük fəaliyyəti sadəcə bir iş deyil, həm də ailəsinə təhlükəsizlik və həyata yenidən başlamaq imkanı təmin etmiş ölkəyə minnətdarlığını bildirməyin bir vasitəsidir.

**“İkinci vətənim olan Azərbaycanın ev sahibliyi etdiyi bu mühüm qlobal tədbirə töhfə verməkdən qürur duyuram,”**

- deyə Müctəba bildirir.



Foto: BMTQAK/2024



Biləsuvarlı gənc arıçı İsgəndər Şirəlizadə BMT-nin dayanıqlı dolanışıq vasitələrini təşviq etmək üçün dəstəklədiyi gənclər arasındadır.
Foto: FAO/Cavid Qurbanov/2024

Food and Agriculture Organization of the United Nations
IOM UN MIGRATION
UNDP
UNHCR The UN Refugee Agency
unicef for every child

# 2.2. Əməkdaşlığa dair Çərçivə Sənədinin prioritetləri, nəticələri və məhsulları

## Nəticə 1.1:

## İNKLÜZİV ARTIM VƏ LAYİQLİ ƏMƏK

**Kənarda qalan insanlar əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edir və ondan yararlanır**

**İnklüziv iqtisadi inkişafın və kənarda qalan insanlar üçün layiqli əməyin təmin edilməsi**

2024-cü ildə Azərbaycandakı BMT sistemi qadınlar, gənclər, qaçqınlar, məcburi köçkünlər və kənd icmaları da daxil olmaqla, həssas qrupların dəstəklənməsinə diqqət yetirməklə daha inklüziv və dayanıqlı iqtisadiyyatın təşviqinə yönəlmiş səylərə öz töhfəsini verib. Bacarıqların inkişafı, MKOM-ların dəstəklənməsi, maliyyə inklüzivliyi, siyasət dialoqu və əmək bazarında iştirak sahələrində həyata keçirilən təşəbbüslər vasitəsilə, BMT fərdlərə yaşayış vasitələrini gücləndirməyə, kiçik bizneslərini böyütməyə və məşğulluq imkanlarına çıxışı artırmağa kömək edib. Siyasət dəstəyini praktiki tədbirlərlə uzlaşdıran bu səylər iqtisadi imkanların genişləndirilməsinə töhfə verməklə, daha inklüziv əmək bazarını təşviq edib.

### 1. İnklüziv inkişafa nail olmaq məqsədilə kiçik bizneslərin və bacarıqların inkişafının dəstəklənməsi

Mikro, kiçik və orta sahibkarlıq subyektləri (MKOS) və kooperativlər, xüsusilə kənd yerlərində və münaqişənin təsirinə məruz qalan ərazilərdə iqtisadi artımın, məşğulluğun və davamlılığın əsas hərəkətverici amilləridir. 2024-cü ildə BMT bazarlara çıxış imkanını genişləndirməklə, investisiyaların cəlb olunmasına şərait yaratmaqla

### 2024-cü ildə maliyyələşmə

| Büdcə (ABŞ dolları) | Xərclər (ABŞ dolları) | Yerinə yetirmə (%) |
|---|---|---|
| 8 817 913 | 7 784 982 | 88 |

### DİM-lərə töhfə




### Gender bərabərliyinə töhfə (ABŞ dolları)




- **Marker 1**–4 678 941
- **Marker 2**–2 911 559
- **Marker 3**–1 710 404

və biznesləri uzunmüddətli dayanıqlılıq üçün zəruri alət və bacarıqlarla təchiz etməklə MKOS-lara dəstək göstərib. BMT, eyni zamanda, xüsusilə gənclər, qadınlar, məcburi köçkünlər və əlilliyi olan şəxslər üçün işçi qüvvəsinin inkişafının, peşə hazırlığı və məşğulluq imkanlarının gücləndirilməsi istiqamətində milli tərəfdaşlarla sıx əməkdaşlıq edib.

- Ağdam rayonunda fəaliyyət göstərən "Eko-Süd" kooperativinin müasir avadanlıqlarla genişləndirilməsi 23 üzv üçün səmərəliliyi, məhsul keyfiyyətini və bazar rəqabət qabiliyyətini artırıb, bu da paytaxtda daha geniş bazarlara çıxışa imkan yaradıb.
- "Azərbaycanda sosial müəssisələrin dəstəklənməsi üçün siyasət və ekosistem tövsiyələri" adlı sənəd hazırlanıb və bu sənəddə əlverişli mühitin gücləndirilməsi, maliyyə resurslarına çıxış imkanının yaxşılaşdırılması və inklüziv və dayanıqlı inkişaf üçün sosial sahibkarlığın sürətləndirici amil kimi təşviq olunması üzrə əsas fəaliyyətlər müəyyən edilib.
- 18 MKOS "Resurs səmərəliliyi və daha təmiz istehsal (RECP)" təcrübələrini tətbiq edib, bu da onların resurs sərfiyyatını azaltmasına, xərcləri azaltmasına və ətraf mühitə təsirləri minimuma endirməsinə kömək edib.
- 162 yeni kiçik biznes təsis edilib və onlardan 126-sına qadınlar rəhbərlik edir.
- Peşə təhsili və təlimi müəssisələri (PTTM-lər) ilə iş 2024-cü ildə davam etdirilib, BMT-nin dəstəyi ilə tibbi avadanlıqların təmiri və servisi və elektromexaniki suvarma sistemlərinə texniki qulluq üzrə 2 yeni kurs istifadəyə verilib. Bu kurslara 97 tələbə, o cümlədən 25 nəfər əlilliyi olan şəxs qoşulub. Dual PTT proqramları 30 ixtisas üzrə genişləndirilib. Bundan əlavə, 120 işəgötürənlə əməkdaşlıq və kurikulum üzrə keçirilən 3 dəyirmi masa peşə hazırlığında özəl sektorla tərəfdaşlığı daha da möhkəmləndirib.




Buradan **yüklə**

- Ümumilikdə 508 nəfər (onlardan 67-si qaçqın, 447-si qadın) müxtəlif bacarıqlar, o cümlədən biznesin planlaşdırılması, vergilərin hesablanması, mühasibat uçotu, dərzilik, qənnadçılıq və s. üzrə təlimlərdən keçib. Bu təlimlər iştirakçıların gəlir gətirən fəaliyyətlərlə məşğul olmasını dəstəkləmək üçün onları alət və biliklərlə təchiz edib.
- Əlilliyi olan gənclər üçün Karyera Sürətləndirmə Proqramı həyata keçirilib və bu proqram çərçivəsində mentorluq, bacarıqlar üzrə təlimlər və iş yerində inklüzivliyə yönələn səylər vasitəsilə onların əmək bazarına keçidi dəstəklənib.



Ağcabədili Rəvanə Həsənova gipsdən əl işi unikal suvenirlər yaradır. Qadın Resurs Mərkəzinin dəstəyi ilə o, həvəsini biznesə çevirib. Onun hekayəsini izləmək üçün bura.
Foto: BMTİP/Məmməd Əliyev/2024

## Ümid hekayəsi

### Ənənəyə söykənən, məqsədyönlü inkişaf yolu

**"Köçəri həyat tərzi ilə böyüdüyümüz üçün yanaşmamız təbiətə və ekologiyaya hörmət prinsiplərinə əsaslanır. Bu isə o deməkdir ki, məhsullarımız təmiz və qatqısız olur,"**

– deyə Ağdamlı Məhəmməd Bayramov bildirir.



Foto: FAO/Cavid Qurbanov/2024

Ənənəvi tərəkəmə həyat tərzindən ilhamlanan Məhəmməd Bayramov və digər çobanlar mövsümi köçəri həyatlarını davamlı əməkdaşlığa çevirərək "Eko-Süd" kooperativini yaradıb. BMT-nin dəstəyi ilə onlar fəaliyyətlərini müasirləşdirərək yeni avadanlıqlar və təmiz su sistemləri tətbiq edib və dayanıqlı kənd təsərrüfatı üzrə təlimlər keçib.

Hazırda kooperativ 23 ailəni özündə birləşdirir və regional bazarlar üçün təbii süd məhsulları istehsal edir. Onların bu səyahəti ənənə ilə innovasiyanı birləşdirərək gələcək üçün dolanışıq vasitələri və yerli həllər yaradır.

Ətraflı buradan oxuyun.

## 2. Kənd təsərrüfatı sahəsindəki siyasətlərin və təcrübələrin, kənd turizminin və iqtisadi davamlılığın gücləndirilməsi

BMT kənd icmalarının iqtisadi baxımdan həssaslığını nəzərə alaraq, kənd təsərrüfatı üzrə məhsuldarlığın artırılması, torpaq idarəetməsinin möhkəmləndirilməsi və gəlir mənbələrinin şaxələndirilməsi, bununla da uzunmüddətli davamlılıq və dayanıqlılığın təmin edilməsi istiqamətində məqsədyönlü müdaxilələr həyata keçirib.

- Milli bitki sortlarının qeydiyyatı üzrə təsdiqetmə prosesinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) standartlarına uyğunlaşdırılması və genetik ehtiyatların səmərəli formada sənədləşdirilməsi və idarə olunmasının təmin edilməsi üçün Aqrar Xidmətlər Agentliyinin imkanları artırılıb.
- BMT həmçinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin qida təhlükəsizliyi üzrə nəzarət sistemləri və risklər barədə məlumatlandırma mexanizmləri sahəsində potensialını gücləndirir. Ölkənin qidaya nəzarəti sistemi üzrə hərtərəfli qiymətləndirmə aparılıb, təkmilləşdirməli əsas sahələr müəyyən edilib. Bu, Azərbaycanın beynəlxalq qida təhlükəsizliyi standartlarına uyğunlaşmasını dəstəkləyir və 2-ci və 3-cü Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə uzunmüddətli irəliləyişə töhfə verir.
- İqlimə davamlı kənd təsərrüfatı, su idarəetməsi, bitki sortlarının qeydiyyatı, toxum istehsalı, kooperativ idarəçiliyi, meşə zərərvericiləri və xəstəliklərin idarə olunması kimi sahələrdə müxtəlif qurumlardan 418 nəfər üçün potensialın artırılması üzrə fəaliyyətlər həyata keçirilib.

- BMT qida təhlükəsizliyi, aqrar tədqiqatlar və dayanıqlılıq mövzularında birgə tədbirlər və müzakirələr vasitəsilə akademik qurumlarla, xüsusilə Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) və ADA Universiteti ilə əməkdaşlığı genişləndirib. Azərbaycan Dövlət Aqrar Universiteti ilə imzalanmış Anlaşma Memorandumu (AM) kənd yerlərinin inkişafı, dayanıqlı dəyər zəncirləri, su idarəetməsi və innovasiya sahələrində bilik mübadiləsini və əməkdaşlığı təşviq etməklə, bu tərəfdaşlığı rəsmiləşdirib.

- Bakı, Şamaxı, Quba və Tovuzda yerləşən dörd regional torpaq laboratoriyasının Qlobal Torpaq Laboratoriyaları Şəbəkəsində (GLOSOLAN) qeydiyyata alınması torpağın idarə olunmasına dair əsaslandırılmış uzunmüddətli qərarların qəbulunu dəstəkləmək və dayanıqlı kənd təsərrüfatı təcrübələrini təşviq etmək məqsədilə torpaq təhlillərinin keyfiyyətini və etibarlılığını artırıb.

- Torpaq Konsolidasiyası Strategiyası və Torpaq Bankçılığı Strategiyasının hazırlanmasına dəstək göstərilməsi təsərrüfat məhsuldarlığının artırılması, torpaq istifadəsinin optimallaşdırılması və kiçik fermerlərin əkin sahələrinə çıxış imkanının genişləndirilməsi məqsədini daşıyır. Kənd təsərrüfatı kooperativlərinin inkişafını, idarə edilməsini və səmərəliliyini gücləndirmək üçün Hökumətə əsas tövsiyələri verən Kənd Təsərrüfatı Kooperativləri üzrə Siyasət Çərçivəsinin Təhlili və Hüquqi Hesabat hazırlanıb. Bu sənədlər kənd yerlərinin inklüziv inkişafına və dayanıqlı kənd təsərrüfatına dəstək verir.

- Kənd yerlərində ekoturizmin populyarlığı artdıqca, BMT şimal bölgədə yerləşən Qusar rayonunun Urva kəndində Turizm Məlumat Mərkəzinin yaradılması və yerli qida istehsalını təşviq etmək məqsədilə kənd brendinin hazırlanması kimi təşəbbüslərə töhfə verib. Həmçinin, ətraf mühitin mühafizəsi ilə iqtisadi fəaliyyətlər arasında tarazlığı təmin etmək məqsədilə Hirkan və Şirvan Milli Parklarının yaxınlığındakı kəndlər üçün investisiya təhlilinin aparılmasına şərait yaradıb. Dayanıqlı turizmi təşviq etmək üçün Şirvan Milli Parkındakı körpü dayağını bərpa edib və Qızılqaz gölündə ziyarətçilər üçün nəzərdə tutulmuş məkanları yeniləyib.

- Bundan əlavə, BMT 120,000 sakinin yaşadığı şimal-qərb və mərkəzi şimal rayonları üzrə turizm məkanının idarəolunması üzrə Beşillik Planların (DMP) hazırlanmasına dəstək göstərib. Bu planlarda ziyarətçilərin cəlb edilməsi, turizm xidmətlərinin genişləndirilməsi və yerli bizneslərin dəstəklənməsi üzrə strategiyalar müəyyən edilib. Turistlərin səyahətlə bağlı məlumatlara, yerli turistik məkanlara və xidmətlərə daha rahat çıxışını təmin etmək məqsədilə yeddi səyyar məlumat məntəqəsi quraşdırılıb. İnfrastruktur layihələri çərçivəsində mərasim evi inşa edilib, kənd kafeləri təmir olunub və mədəni irs yerləri bərpa edilib.

- Milli səviyyədə Dəyər Zəncirinin Qiymətləndirilməsi hesabatı kənd yerlərində əhalinin, xüsusilə qadınlar, gənclər və həssas qrupların yaşayış və məşğulluq imkanlarının yaxşılaşdırılması istiqamətində yüksək potensiala malik beş iqtisadi sektor (mal əti, qoyun əti, pomidor, buğda və üzüm) müəyyən edərək, bu istiqamətdə siyasət tövsiyələri təqdim edib.

- Bundan əlavə, 2,314 fermer, o cümlədən 612 qadın təlimlərdən və infrastrukturun təkmilləşdirilməsi ilə bağlı tədbirlərdən (məsələn, pomidor və turşuya qoyulmuş tərəvəzlərin istehsalı) faydalanıb.



Tovuz rayonundan olan qadınların rəhbərlik etdiyi kooperativin üzvü Minayə Ələkbərova "Qadınların Gücləndirilməsi" layihəsi çərçivəsində buğda tarlasında məhsula baxış keçirir.
Foto: FAO/Cavid Qurbanov/2024

## Çətinliklər və öyrənilmiş dərslər

1. Kənd icmalarında maliyyə xidmətlərinə, aqrar məsləhət xidmətlərinə, bazarlara və peşə hazırlığı imkanlarına məhdud çıxış iqtisadi inklüzivlik üçün maneə olaraq qalır. Kənd yerlərində maliyyə infrastrukturunun gücləndirilməsi, rəqəmsal bankçılığın genişləndirilməsi və peşə hazırlığı proqramlarının təkmilləşdirilməsi dolanışıq vasitələrinin yaxşılaşdırılması, sahibkarlığın təşviq edilməsi və bərabərsizliyin azaldılması istiqamətində atılmalı olan növbəti vacib addımlardır.
2. İnzibati çətinliklər həssas əhali qruplarının rəsmi əmək bazarına çıxışını məhdudlaşdırmaqda davam edir. Onların iqtisadi iştirakını artırmaq və layiqli əmək imkanlarına çıxışı təmin etmək üçün hüquqi təşviqat tədbirləri və normativ islahatlara ehtiyac duyulur.
3. Qadınların iqtisadi cəhətdən gücləndirilməsi sahəsində əldə edilmiş irəliləyişlərə baxmayaraq, genderə əsaslanan sosial normalar qadınların yüksək inkişaf potensialına malik sahələrdə iştirakını hələ də məhdudlaşdırır. Genderə həssas iqtisadi siyasətlərin gücləndirilməsi və əsas sahələrdə qadın liderliyinin təşviqi prioritet məsələdir.

## Ümid hekayəsi

### Torpaqların dirçəlişinə doğru

**"Bu layihəyə qoşulmaq məni həqiqətən faydalı bir işin bir hissəsi kimi hiss etdirdi,"**

– deyə komandasında mina tapan ilk qadın minaaxtaranlardan biri olan Nərmin bildirir.

Nərmin uşaqları ilə birlikdə məcburi köçkünlər üçün salınmış qəsəbəyə köçmüşdü və bir gün torpaqlar yenidən təhlükəsiz olandan sonra doğma yurduna qayıdacağına ümid edirdi. Minaaxtaran vəzifəsinə müraciət etdikdə bu qərarı ailəsində narahatlıq doğurmuş, lakin o, töhfə verməyə borclu olduğunu hiss etmişdi. Bu gün o, cəsur qadınlardan ibarət komanda ilə çiyin-çiyinə çalışaraq minaları zərərsizləşdirilmək üçün təhvil verir, beləliklə qayıdış, bərpa və sülhə yol açır.

**"Bu mənim ilk işimdir. İlk qazancımla ailəmə dəstək oldum. Həmin an bizə azadlıq və ümid bəxş etdi".**

Ətraflı buradan oxuyun.



Foto: BMTİP/Məmməd Əliyev/2024




Jalə dayanıqlı texnologiyalar vasitəsilə daha yaxşı bir gələcək formalaşdırmağa can atır. STEAM Azərbaycan Festivalı 2024-də o, daha təmiz, daha sağlam ətraf mühitin hamıya fayda gətirdiyinə inanaraq işini şövq və qətiyyətlə nümayiş etdirib.
Foto: UNICEF/Məmməd Əliyev/2024

Food and Agriculture Organization of the United Nations
IOM UN MIGRATION
UNITED NATIONS HUMAN RIGHTS OFFICE OF THE HIGH COMMISSIONER
UNDP
UN HABITAT
UNHCR The UN Refugee Agency
UNFPA
unicef for every child
World Health Organization

# Nəticə 2.1:

## Güclü institutlar, keyfiyyətli dövlət və sosial xidmətlər

**Kənarda qalan insanlar Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq sosial müdafiə və keyfiyyətli dövlət və sosial xidmətlər üçün gücləndirilmiş milli potensial və idarəçilik strukturlarından faydalanır**

**Ən həssas vəziyyətdə olan şəxslər üçün inklüziv, yüksək keyfiyyətli dövlət və sosial xidmətlərin təmin edilməsi**

2024-cü ildə Azərbaycandakı BMT sistemi inklüziv, yüksək keyfiyyətli dövlət və sosial xidmətlərin (xüsusilə təhsil, səhiyyə və sosial müdafiə sahələrində) göstərilməsi üçün milli potensialların və idarəçilik strukturlarının gücləndirilməsinə yönəlmiş fəaliyyətlər həyata keçirib. Bu səylərin məqsədi hər kəs, xüsusilə qadınlar, uşaqlar, qaçqınlar, keçmiş məcburi köçkünlər və kənd əhalisi üçün əsas xidmətlərə bərabər çıxış imkanlarını təmin etmək olub. Siyasət islahatları, institusional gücləndirmə və xidmət göstərilməsinin təkmilləşdirilməsi vasitəsilə, BMT sistemi Azərbaycanın öz milli inkişaf gündəliyində heç kəsi kənarda qoymamaq öhdəliyini dəstəkləyib.

### 1. Keyfiyyətli təhsilə inklüziv çıxış imkanlarının genişləndirilməsi

Təhsil dayanıqlı inkişafın əsas aparıcı qüvvələrindən biridir. 2024-cü ildə BMT təhsilə bərabər çıxış imkanlarının genişləndirilməsində, təcrid olunmuş qrupların, o cümlədən əlilliyi olan uşaqların, qaçqınların və təcrid olunmuş qalmış gənclərin inklüziv təhsil mühitlərindən faydalanmasının təmin edilməsində Azərbaycana dəstək göstərib.

- İcma əsaslı erkən uşaqlıq dövründə təhsil proqramları 18000 uşağı (8600-ü qız) əhatə edib.

### 2024-cü ildə maliyyələşmə

| Büdcə (ABŞ dolları) | Xərclər (ABŞ dolları) | Yerinə yetirmə (%) |
| --- | --- | --- |
| 15 547 984 | 12 269 600 | 79 |

### DİM-lərə töhfə




### Gender bərabərliyinə töhfə (ABŞ dolları)




- **Marker 0**–3 731 391
- **Marker 1**–3 445 458
- **Marker 2**–12 144 826
- **Marker 3**–50 000

- İnklüziv təhsilin genişləndirilərək, 22 rayonun 67 məktəbində təmin olunması 350 nəfər əlilliyi olan uşaq və 168 nəfər qız daxil olmaqla 4600-dən çox uşağa fayda verib.

- İxtisaslaşdırılmış müəllim hazırlığı proqramları təxminən 1400 pedaqoqu inklüziv təhsil metodologiyaları ilə təchiz edib.

- Ölkə üzrə 18 Gənclər Evində karyera məsləhətləri, bacarıqların inkişafı və əmək bazarına hazırlıq xidmətləri davam etdirilərək, 337 qız daxil olmaqla, 596 gəncə, xüsusilə işləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərə və qızlara fayda verib.

- Gənclərə yönəlmiş bacarıqların inkişafı platforması olan PROGRO insan resursları, maliyyə və qrafik dizayn sahələrində təlimlər vasitəsilə 180 gəncə fayda verib, onların məşğulluq imkanlarını artırmaq məqsədilə onlayn təlim videoları və podkastlar yayımlayıb.

- 370 qaçqın uşaq (187 qız və 153 oğlan) ibtidai və orta təhsilə cəlb edilib. Onlar məktəbə qəbulda köməklik, məktəb ləvazimatları üçün maddi yardım və hazırlıq kursları vasitəsilə dəstəklənib.

- 326 məktəbli (146 qız və 180 oğlan) qaçqın və sığınacaq axtaran ailələrə verilən təhsil müavinətindən faydalanıb.

## 2. Səhiyyə sistemlərinin gücləndirilməsi

2024-cü ildə BMT Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsinə töhfə verərək, universal tibbi təminat, ana və uşaq sağlamlığı, immunlaşdırma, psixi sağlamlıq xidmətləri və səhiyyədə iqlimə davamlılıq kimi sahələrə diqqət yetirib.

- Nazirlər Kabineti tərəfindən rəsmi şəkildə tanınan Beynəlxalq Səhiyyə Qaydaları üzrə çoxsektorlu Komitənin yaradılması yeni sağlamlıq təhlükələrinə qarşı koordinasiyalı cavab tədbirlərinin təmin olunmasında mühüm addım olub.

- BMT keyfiyyətli Erkən Uşaqlıq Dövründə İnkişaf (EUDİ) və ana sağlamlığı xidmətlərinə çıxış imkanını təmin etmək məqsədilə, Universal-Proqressiv Patronaj Xidməti modelinin ilkin səhiyyə sisteminə inteqrasiya yolu ilə genişləndirilməsinə, habelə 1028 tibb bacısı, 2462 tibb tələbəsi və 8480 mütəxəssisin erkən uşaqlıq dövründə inkişaf (EUDİ) sahəsində bacarıqlarının artırılmasına dəstək göstərib.

- 6357 uşaq milli immunlaşdırma kampaniyaları çərçivəsində peyvənd olunub, 427 tibb işçisi isə immunlaşdırma və məlumatlandırma mövzularında təlim keçib. Bu, qızılca və digər peyvəndlə qarşısı alına bilən xəstəliklərin yayılma riskini azaldıb.




- Yeni "Uşaqların immunizasiyası üzrə Təlimat" BMT-nin tövsiyələrini özündə əks etdirir və hazırda 2000 peyvənd məntəqəsində çalışan tibb işçiləri tərəfindən istifadə olunur.

- İmmunlaşdırma təlimləri bakalavr və diplomdan sonrakı tibb təhsili proqramlarına inteqrasiya olunub. Səhiyyə üzrə kurikulumlara iqlim dəyişmələrinə davamlılıq və fəlakətlərə hazırlıq komponentləri əlavə olunub və bu, gələcək tibb işçilərinin yeni sağlamlıqla əlaqəli çağırışlara hazır olmalarını təmin edir.

- 6000-dən çox "soyuq zəncir" sistemi avadanlıqlarının ianə edilməsi nəticəsində immunlaşdırma infrastrukturu milli peyvənd saxlama ehtiyaclarının 100%-ni və müəssisə səviyyəsində prioritet tələblərin 93%-ni ödəyib. Mərkəzləşdirilmiş, kompüterləşdirilmiş məsafədən temperatura nəzarət sistemi və "soyuq zəncir" sistemi inventarının rəqəmsallaşdırılması peyvəndlərin təhlükəsizliyi və logistikasının idarə olunmasının səmərəliliyini daha da artırıb.

- 1000 nəfər qaçqın (526-sı qadın) və 66 nəfər vətəndaşlığı olmayan şəxs (31-i qadın) ilkin, ikinci və üçüncü dərəcəli tibbi yardımın əhatə dairəsini genişləndirən dövlət tibbi sığorta sistemi çərçivəsində əsas səhiyyə xidmətlərindən istifadə edib.

- Yaponiyanın "Fuji Optical Co. Ltd" şirkətinin təşkil etdiyi 17-ci göz müayinəsi humanitar missiyası çərçivəsində Ağdam və Bərdə rayonlarında 3263 nəfər şəxs göz müayinələrindən keçib, onlara eynəklər, linzalar və eşitmə cihazları təqdim olunub.

- BMT tərəfindən təşkil edilən "Vahid Sağlamlıq Simpoziumu" əsas maraqlı tərəfləri bir araya gətirməklə, ÜST-nin Vahid Sağlamlıq üzrə Dördtərəfli Birgə Fəaliyyət Planına uyğun olaraq Vahid Sağlamlıq strategiyasının hazırlanması üçün əsas prioritetləri müəyyən etmək məqsədilə, işçi qrupun yaradılması ilə nəticələnib. Sonrakı aylarda bu təşəbbüs COP29 zamanı Milli Strategiyanın təqdim olunması ilə yekunlaşıb.

- Eyni zamanda, Azərbaycanın 2024-cü ildə Dünya Heyvan Sağlamlığı Təşkilatı (WOAH/OIE) tərəfindən rəsmi şəkildə xırdabuynuzlu heyvanların taun xəstəliyindən (PPR) azad ölkə kimi tanınması BMT-nin dəstəyi ilə altı prioritet heyvan xəstəliyinin qiymətləndirilməsi və yüksək səviyyəli siyasət müzakirələri nəticəsində əldə olunub. Bu nailiyyət xəstəliklərə qarşı uzunmüddətli mübarizə səylərini gücləndirir, heyvan sağlamlığını gücləndirir və bazara çıxış imkanlarını genişləndirir.

- Ana və uşaq qidalanması sahəsində görülən işlərə dəstək məqsədilə, milli qanunvericilik "Ana Südü Əvəzedicilərinin Marketinqi üzrə Beynəlxalq Kodeks"ə uyğunlaşdırılıb. Qidalı mikroelement çatışmazlıqlarını geniş miqyasda aradan qaldırmaq üçün, buğda ununun zənginləşdirilməsi üzrə texniki dəstəyin göstərilməsinə də başlanılıb.

- Əlilliyi olan və ehtiyacı olan şəxslər üçün köməkçi texnologiyalara və reabilitasiya xidmətlərinə çıxışın genişləndirilməsi məqsədilə bir sıra vacib sahələr üzrə təşəbbüslər həyata keçirilib. Köməkçi vasitələrin mövcudluğu, əlçatanlığı və sərfəliliyi ilə bağlı çatışmazlıqları müəyyən etmək üçün bazar təhlili aparılıb. Dövlət tərəfindən maliyyələşdirilən köməkçi vasitələrin siyahısı 81-dən 127-ə qədər genişləndirilib, nəticədə əsas köməkçi vasitələrə əlçatanlıq artıb. Bu vasitələrin keyfiyyətini, təhlükəsizliyini və əlçatanlığını təmin etmək məqsədilə, standartlar üzrə çərçivə sənədinin layihəsi hazırlanıb.

- Yeni yaranan təhlükələrə hazırlıq və davamlılıq eləcə də antimikrob müqaviməti sahələrində milli tərəfdaşların potensialları artırılıb. Bu, erkən xəbərdarlıq sistemlərinin gücləndirilməsinə və risklərin azaldılması strategiyalarının təkmilləşdirilməsinə töhfə verib.

## Ümid hekayəsi
### Narahatlığın etibara çevrilməsi

**"İndi çox sevinirəm ki, Məryəm və Mehracın sağlam böyümək üçün lazım olan immunitetə malikdir,"**

- deyə Naxçıvandan olan ana Nuray bildirir.


Foto: UNICEF/ 2024

COVID-19 pandemiyası zamanı gündəlik səhiyyə xidmətlərində yaranan fasilələr zamanı bir çox valideyn kimi Nuray Səfərova da iki azyaşlı övladının - 3 yaşlı Məryəm və 5 yaşlı Mehracın vacib peyvəndlənmə üçün həkim qəbulu vaxtlarını ötürüb. Şübhələrin olması, aydın məlumatların çatışmazlığı və xidmətlərə çıxışda yubanmalar onu uzun müddət nə edəcəyini bilmədən gözləməyə məcbur edib.

BMT-nin dəstəyi ilə həyata keçirilən məqsədyönlü maarifləndirmə sayəsində Nuray Ümumdünya İmmunlaşdırma Həftəsi çərçivəsində keçirilən kampaniyada iştirak edib. Burada tibb işçiləri valideynlərin suallarını cavablandırıb, etibarlı və aydın məlumat təqdim edib və hər iki uşağın peyvənd cədvəli üzrə peyvəndlənməsini təmin ediblər. Artıq Nuray daxili rahatlıq hiss etməklə yanaşı, həm də başqa valideynləri də eyni addımı atmağa təşviq edir:

**"Uzun müddət nə edəcəyimi bilmirdim, amma indi immunlaşdırmanı inamla dəstəkləyirəm və digər valideynlərə də gözləməməyi məsləhət görürəm."**

Ətraflı buradan oxuya bilərsiniz.

## 3. Sosial müdafiə sistemlərinin gücləndirilməsi

Sosial müdafiə mexanizmləri aztəminatlı ailələr, əlilliyi olan şəxslər, miqrantlar, qaçqınlar və keçmiş məcburi köçkün icmaları da daxil olmaqla, həssas əhali qrupları üçün vacib olaraq qalır. 2024-cü ildə BMT siyasət təkmilləşdirmələrinə, maliyyə inklüzivliyinin genişləndirilməsinə, sosial müdafiə sistemlərinin gücləndirilməsinə və xidmətlərin keyfiyyətinin artırılmasına dəstək verib.

- BMT hökumətin minatəmizləmə səylərini dəstəkləyib. Bu səylər nəticəsində, münaqişədən zərər çəkmiş ərazilərdə 384 partlayıcı qurğu zərərsizləşdirilib və 3.1 milyon m² ərazi bərpa edilib. 34 qadından ibarət akkreditə olunmuş qadın minatəmizləmə qruplarına əməliyyat sertifikatının verilməsi minatəmizləmə əməliyyatlarında iştirak edən işçi qüvvəsinin tərkibində gender aspektlərinin nəzərə alınmasını daha da təşviq edib. Bundan əlavə, texniki-iqtisadi əsaslandırma Minalardan Təmizləmə üzrə Beynəlxalq Mükəmməllik və Təlim Mərkəzinin (ICETMA) yaradılmasının məqsədəuyğunluğunu və potensial təsirini təsdiqləyib.
- Partlayıcı sursatların riskləri barədə maarifləndirmə proqramları 10000-dən çox uşaq və onların ailələrini əhatə etməklə, münaqişədən zərər çəkmiş bölgələrdə maarifləndirməni artırıb və müharibənin partlayıcı qalıqlarından yaranan riskləri azaldıb.
- Təkrar məskunlaşma aparılan ərazilərdə psixi sağlamlıq xidmətlərini gücləndirmək məqsədilə, Zəngilan, Şuşa, Laçın və Qubadlı rayonlarından olan həkimlərə ilkin səhiyyə səviyyəsində "Psixi Sağlamlıq Çətinlikləri üzrə Fəaliyyət Proqramı" (mhGAP) mövzusunda təlim keçilib.
- 101 məktəbdə uşaqların müdafiəsi mexanizmləri təşkil edilib, uşaqlara qarşı törədilmiş 1050-dən çox zorakılıq hadisəsi üzrə tədbir görülüb, uşaqlara qarşı zorakılığın qarşısının alınması və cavab tədbirləri üzrə 10200-dən çox müəllimə (83%-i qadın) təlim keçilib. Təhlükəsizliyi və inklüzivliyi artıran bu fəaliyyət aşağıdakı tədbirləri də əhatə edib:
  - Altı rayonda zorakılıq qurbanı olan 1572 uşağa sosial xidmətlər göstərilib;
  - Qarabağ bölgəsində 3573 uşağa psixi sağlamlıq və psixososial dəstək xidməti göstərilib.
- Dövlət resurslarının bölgüsündə hesabatlılığı və şəffaflığı artırmaq məqsədilə, uşaq hüquqlarının müdafiəsi üçün büdcə formalaşdırılması zamanı milli sosial müdafiə strategiyalarına uşaq yönümlü yanaşmalar inteqrasiya olunub.
- 2024-cü ildə miqrantlar üçün maliyyə xidmətlərinə çıxış əsas prioritetlərdən biri olaraq qalıb. 102-si qadın olmaqla ümumilikdə 220 mütəxəssis (bank və poçt işçiləri, maliyyə qurumlarının nümayəndələri, miqrasiya orqanlarının və mərkəzi bankların əməkdaşları) miqrantların bank və kredit xidmətlərinə çıxışının yaxşılaşdırılması, maliyyə maneələrinin aradan qaldırılması və pul köçürmələrindən daha səmərəli istifadə yolları üzrə təlimlərdə iştirak edib və müzakirələrə cəlb olunub.
- BMT hökumətə təqdim olunmuş tədbirlər çərçivəsinin layihəsi, hüquqi təhlil və maliyyə strategiyası daxil olmaqla, böhrana davamlı sosial müdafiə tədbirlərinin irəlilədilməsində milli tərəfdaşlara dəstək göstərib.
- Ümumilikdə 263 dövlət qulluqçusu və məhkəmə orqanlarının nümayəndəsi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsinin gücləndirilməsi, hüquqi təminatların artırılması, milli və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın təşviqinə yönəlmiş potensialın artırılması tədbirlərindən faydalanıb.
- 2024-cü ildə Azərbaycan "ASAN xidmət" modeli ilə bağlı təcrübənin paylaşılması (bu dəfə Efiopiya ilə) üzrə 22-ci Anlaşma Memorandumunu imzalayıb. BMT-nin dəstəyi ilə həyata keçirilən bu razılaşma Azərbaycanın vətəndaş yönümlü dövlət xidmətlərinin göstərilməsi sahəsində təcrübəsinin Efiopiyada tətbiqini dəstəkləmək məqsədilə institusional əməkdaşlıq və bilik mübadiləsini təşviq edir.



**Baxmaq** üçün kliklə

Foto: UNICEF/ 2024



## Ümid hekayəsi

### Müharibənin vurduğu ağır yaralar

Ağdam yaxınlığındakı sakit bir kənddə adi günlərdən biri idi, ta ki, ölümcül mina partlayışı Akifin iki oğlunun həyatına son qoyana, 8 yaşlı nəvəsini yaralayana və onun özünün ayağını qıraraq xəstəxanalıq edənə qədər. Nəvəsi Hüseyn indi travma ilə mübarizə aparır - həyəcanlananda kəkələyir, qaranlıqdan qorxur və baş verənlər barədə danışmaqdan çəkinir.

**"Oğlum hələ də danışmaq istəmir. Qorxur,"**

- deyə Hüseynin anası bildirir.

İndi bu kədərin öhdəsindən gəlməkdə və toparlanmaqda kömək etmək məqsədilə ailəyə psixososial dəstək göstərilir. Fiziki yaralar tədricən keçib getsə də, emosional izlər hələ də dərindir.

Akifin hekayəsi müharibənin vurduğu "səssiz zərər"in izlərini və yaşamağa davam edə bilmək üçün ailələrdən tələb olunan cəsarəti bir daha xatırladır.


Foto: UNICEF/ 2024

Ətraflı buradan oxuya bilərsiniz

## 4. İnsan hüquqlarının və ədliyyəyə çıxış imkanının təşviqi

Ədliyyəyə bərabər çıxış imkanının, şəxsiyyətin hüquqi statusunun və insan hüquqlarının müdafiəsinin təmin edilməsi inklüziv idarəetmənin, ədalətli cəmiyyətin və sosial birliyin qurulması üçün vacibdir. 2024-cü ildə BMT milli tərəfdaşlarla birgə insan hüquqları mexanizmlərinin, hüquq institutlarının və iştiraka əsaslanan idarəetmə strukturlarının gücləndirilməsinə dəstək göstərib.

- VCT-lərə və vəkillərə göstərilən dəstək nəticəsində BMT-nin insan hüquqları üzrə müqavilə qurumlarına 12 təqdimat verilib. Bu qurumlara BMT-nin İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsi, Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsi, Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsi və İnsan Hüquqları Komitəsi daxildir. Bu təqdimatlarda dövlət hesabatlarını tamamlayan alternativ və müstəqil qiymətləndirmələr və tövsiyələr öz əksini tapıb.
- Ümumilikdə 233 nəfər qaçqın, sığınacaq axtaran şəxs və vətəndaşlığı olmayan şəxs (104-ü qadın) hüquqi yardım və sənədləşmə dəstəyi alıb. Bu, sığınacağın verilməsi proseslərini, yerli mühitə inteqrasiyanı və yaşayış hüququ, iş icazəsi, sosial müavinət və əmək hüquqlarının əldə olunmasını asanlaşdırıb. Bu istiqamətdə, 1300-dən çox hüquqi məsləhət xidməti göstərilib, 34 nəfər vətəndaşlığı olmayan şəxs vətəndaşlıq alıb.
- Bakı, Gəncə, Mingəçevir, Ağdam, Füzuli, Bərdə və Tərtərdə 3866 nəfər keçmiş məcburi köçkün (1970-i qadın) hüquqi yardım xidmətlərindən faydalanıb və onlara 1140 hüquqi məsləhət xidməti göstərilib.

## Ümid hekayəsi

### Ana üçün təskinlik: Bütün çətinliklərə rəğmən övladını qorumaq

**"Fikirləşirdim ki, uşağım da yoluxacaq. Onu qorumağın mümkün olduğunu bilmirdim,"**

- deyə Lənkərandan olan 27 yaşlı Aynişan Həsənova (məxfilik məqsədilə ad dəyişilib) bildirir.



Aynişan özünün İİV-ə yoluxmuş olduğunu hamilə olduqdan sonra öyrənib. Həyat yoldaşı illərdir virusla yaşasa da, bunu gizli saxlayıb. Şok və narahatlıq içində olan Aynişan doğulacaq uşağının gələcəyindən qorxurdu.

Lənkəran Regional Perinatal Mərkəzində doğum vaxtı çatdıqda, həkimlər onu əmin edib ki, düzgün tibbi yardımla virusun anadan uşağa keçməsinin qarşısı alına bilər. "Bunun mümkün olduğunu bilmirdim, amma dərhal razılaşdım," - deyə Aynişan xatırlayır. "Sadəcə, körpəmi qorumaq istəyirdim."

BMT tərəfindən icra olunan "Azərbaycanın cənub bölgəsində təhlükəsiz analıq" layihəsi sayəsində Aynişan hamiləlik və doğuş zamanı lazımi tibbi xidmət və dəstək alıb. Onun körpəsi sağ-salamat dünyaya gəlib və ilkin müayinələr onda İİV-ə yoluxma əlamətləri aşkar etməyib.

Ətraflı buradan oxuya bilərsiniz

## Çətinliklər və öyrənilmiş dərslər

1. Kənd yerlərində yaşayan əhali təhsil, səhiyyə və sosial xidmətlərə çıxışda hələ də maneələrlə üzləşir. Bu, xidmətlərin genişləndirilməsini və səyyar xidmət modellərinin tətbiqini zəruri edir.
2. Maliyyə vəsaitlərinin məhdudluğu, struktur maneələr və vətəndaş cəmiyyətinin potensialının zəif olması nəticələrin miqyasını və əhatə dairəsini məhdudlaşdırıb. Əldə olunmuş nəticələrin davamlılığını təmin etmək məqsədilə (xüsusilə də ən həssas əhali qrupları üçün), hökumət və özəl sektorla əməkdaşlığın davam etdirilməsi vacibdir.
3. Qaçqınlar, miqrantlar və vətəndaşlığı olmayan şəxslər hüquqi status almaqda, sosial müdafiə və səhiyyə xidmətlərinə çıxışda inzibati çətinliklərlə qarşılaşır. Bu səbəbdən daha güclü siyasət təşviqinə ehtiyac var.
4. Qadınlar və qızlar, xüsusilə kənd yerlərində, təhsil, məşğulluq və səhiyyə sahələrində hələ də maneələrlə üzləşir. Gender aspektlərini nəzərə alan siyasətlərin və xidmətlərin genişləndirilməsi prioritet məsələdir.



Azərbaycanda inklüziv məktəblərin sayı artdıqca, daha çox uşaq, dəstəkləyici və müxtəliflik olan siniflərdə birlikdə öyrənir, oynayır və böyüyür. Foto: UNICEF/ Əziz Kərimov/ 2024

Food and Agriculture Organization of the United Nations

UNECE

UNHCR The UN Refugee Agency

unicef for every child

# Nəticə 2.2:

## Məlumatlara əsaslanan qərar qəbulu və siyasətlər

**Heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanmasında istifadə üçün keyfiyyətli, dezaqreqasiya olunmuş və vaxtında təqdim olunan məlumatlar mövcuddur və istifadə edilir**

**Dayanıqlı inkişaf üçün məlumatlara əsaslanan qərar qəbulun gücləndirilməsi**

Güclü məlumat ekosistemi inklüziv idarəetmə və dayanıqlı inkişaf üçün vacibdir, siyasət və proqramların bərabərsizlikləri və yeni yaranan çətinlikləri effektiv şəkildə aradan qaldırmasını təmin edir. 2024-cü ildə Azərbaycandakı BMT sistemi milli tərəfdaşlarla birgə DİM-lərə uyğun olan, sübutlara əsaslanan siyasətlərin hazırlanmasını dəstəkləmək üçün məlumat toplama, monitorinq və hesabatvermə üzrə institusional potensialların gücləndirilməsi üzrə iş aparıb. Tədbirlər əsasən məlumatın mövcudluğunu, dezaqreqasiyasını və əlçatanlığını yaxşılaşdırmağa yönəlib və bu prosesdə rəqəmsal alətlərdən istifadə, xüsusilə həssas və tәcrid olunmuş qrupların əhatə olunması ön planda saxlanılıb.

### 1. DİM-lər və "Heç kəsin kənarda qalmaması" prinsipi üzrə monitorinq və hesabatvermə üçün institusional potensialların gücləndirilməsi

Milli inkişaf məqsədlərinin icrası üzrə irəliləyişi izləmək üçün dəqiq, vaxtında təqdim olunan və dezaqreqasiya olunmuş məlumatların təmin edilməsi böyük əhəmiyyət kəsb edir. BMT Azərbaycana DİM-lərin monitorinq sistemlərinin genişləndirilməsi və məlumatlara əsaslanan idarəetmə mexanizmlərinin inteqrasiyası sahəsində dəstək göstərib.

### 2024-cü ildə maliyyələşmə

| Büdcə (ABŞ dolları) | Xərclər (ABŞ dolları) | Yerinə yetirmə (%) |
|---|---|---|
| 745 062 | 699 976 | 94 |

### DİM-lərə töhfə




### Gender bərabərliyinə töhfə (ABŞ dolları)



- BMT-nin dəstəyi ilə hazırlanmış "Azərbaycan Çoxgöstəricili Klaster Sorğusu" (MICS) 2024-cü ildə yekunlaşdırılıb. MICS uşaq və ana sağlamlığı, sosial inklüzivlik və insan inkişafı sahəsində mühüm məlumatlar təqdim edərək, ölkədə dezaqreqasiya olunmuş məlumatların ən dəyərli mənbələrindən birinə çevrilib. 12360 ev təsərrüfatından toplanan məlumatlar əsasında tərtib olunan və 21 DİM göstəricisini əhatə edən MICS regionlar, gəlir qrupları və digər demoqrafik amillər üzrə ətraflı məlumatlar təqdim edərək, siyasətçilərə bərabərsizlikləri müəyyən etməyə, dövlət xidmətlərini yaxşılaşdırmağa və inklüziv inkişaf planlaşdırmasını dəstəkləməyə imkan verir. MICS vasitəsilə toplanan məlumatlar həmçinin, UNESCAP-ın LNOB ("heç kəsi kənarda qoymamaq") təhlil metodologiyasını tətbiq etməklə, Azərbaycanda ən kənarda qalan qruplarla ən böyük imkanlara malik qruplar arasındakı fərqlərin təhlilində vacib rol oynayıb.

- Milli statistika sisteminə cins üzrə dezaqreqasiya olunmuş 16 yeni göstərici inteqrasiya edilərək, "Azərbaycanda qadınlar və kişilər" adlı illik statistik məcmuə yenilənib. Bu, gender aspektlərini nəzərə alan siyasətlərin hazırlanması üçün daha əhatəli gender təhlilini təmin edib.

- DİM-lərin monitorinqinin daha da gücləndirilməsi məqsədilə, BMT milli qurumlarla birgə işləyərək, UNESCAP tərəfindən hazırlanmış real vaxt rejimində monitorinq, məlumatların vizuallaşdırılması və irəliləyişin izlənməsinə imkan verən Milli DİM İzləmə alətini hazırlayıb.



Baxmaq üçün kliklə

Foto: UNICEF/ 2024




Buradan **yüklə**

MICS nəticələri bəzi uşaq hüquqları sahələrində (5 yaşadək uşaqlar arasında ölüm səviyyəsi, uşaqlarda boyatmanın ləngiməsi, doğumdan əvvəl qulluqla əhatə olunma və s.) mühüm irəliləyişlərin əldə edildiyini göstərib. Bununla belə, uşaqlara qarşı zorakılıq hallarının yayılması, erkən nikahlar, immunlaşdırma, yalnız ana südü ilə qidalanma və yeniyetmələr arasında doğum səviyyəsi kimi sahələrdəki vəziyyət uşaq həyatının müxtəlif aspektlərini yaxşılaşdırmaq üçün səylərin sürətləndirilməsinə və müxtəlif xidmətlərin yaxşılaşdırılmasına (xüsusilə, əlilliyi olan qız və oğlan uşaqları və ucqar kəndlərdə yaşayanlar kimi ən həssas qruplar üçün) ehtiyac olduğunu vurğulayır.

## 2. Sübutlara əsaslanan siyasətlərin hazırlanması üzrə milli potensialların gücləndirilməsi

Etibarlı və dezaqreqasiya olunmuş məlumatlar bərabərsizlikləri və zəiflikləri effektiv şəkildə aradan qaldıran inklüziv siyasətlərin hazırlanması üçün vacibdir. 2024-cü ildə BMT siyasətlərin hazırlanması üçün yüksək keyfiyyətli sübutların əldə olunması məqsədilə milli məlumat infrastrukturunun təkmilləşdirilməsində əsas rol oynayıb.

- Şəhərsalma proseslərinə nəzarəti gücləndirmək üçün qabaqcıl rəqəmsal texnologiyaların inteqrasiyasına imkan verən Şəhərsalma Nəzarətinin Elektron Sistemi işə salınıb.

- Geoməkan və məsafədən zondlama texnologiyalarının tətbiqi ilə kənd təsərrüfatı, torpaqdan istifadə və ətraf mühitin monitorinqi üçün məlumat toplama üzrə təxminən 250 əməkdaşa təlim keçilib, bu isə sübutlara əsaslanan siyasətlərin planlaşdırılması prosesini daha da gücləndirib.

- Ətraf mühit statistikası və məlumatları, institusional sektor hesabları, Rəqəmsal Kənd Təsərrüfatı Siyahıyaalması, yeni məlumat mənbələri üzrə bir sıra subregional və regional təşəbbüslər rəsmi statistikanın inkişafı istiqamətində milli potensialları gücləndirib.

### Çətinliklər və öyrənilmiş dərslər

1. Təkmilləşdirmələrə baxmayaraq, əlilliyi olan şəxslər, miqrantlar, kənd icmaları və ən həssas əhali qrupları üzrə məlumatların toplanması məhdud olaraq qalır. İnklüziv məlumat toplama metodologiyalarının genişləndirilməsi vacibdir.
2. Məlumatların toplanması sahəsində mühüm irəliləyişlər əldə edilsə də, məlumatları praktiki siyasətlərə çevirmək və sübutlara əsaslanan siyasətlərin hazırlanmasını təmin etmək üçün analitik potensiallar daha da gücləndirilməlidir.
3. İnstitusional məlumat mübadiləsi mexanizmləri sektorlar arasında daha da harmonizasiya edilməlidir ki, daha yaxşı əlaqələndirilmiş siyasətlərin hazırlanması üçün müxtəlif dövlət qurumları inteqrasiya edilmiş məlumat dəstlərindən səmərəli şəkildə istifadə edə bilsin.



İkili peşə təhsili proqramı tələbələrə praktik bacarıqlarını mənimsəməyə və öz sahələrindəki yenilikləri izləməyə kömək edir. Tələbələr sobadan təzə çıxmış məhsullarını qürurla təqdim edir.
Foto: BMTİP/2024



Samux rayonunda fermer BMT-nin dəstəklədiyi təşəbbüslə tətbiq edilən dayanıqlı əkinçilik təcrübələrindən istifadə etdiyi tarlasında gəzir.
Foto: FAO/Cavid Qurbanov/2024

Food and Agriculture Organization of the United Nations

IOM UN MIGRATION

UNDP

UNECE

UNIDO

# Nəticə 3.1:

## Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinə qarşı mübarizə

**İnsanlar, o cümlədən kənarda qalanlar təbii sərvətlərin dayanıqlı şəkildə idarə olunmasını, yaşayış üçün vasitələrinin qorunmasını və dayanıqlılığın artırılmasını təmin edən iqlim strategiyaları və ətraf mühitin mühafizəsi üzrə siyasətlərdən faydalanır.**

**Azərbaycanda iqlim dəyişmələrinə davamlılığın və ətraf mühitin dayanıqlığının gücləndirilməsi**

2024-cü ildə Azərbaycan COP29-a ev sahibliyi etməklə və bərpa olunan enerji təşəbbüslərini təşviq etməklə, qlobal iqlim fəaliyyətində fəal iştirak edən ölkə kimi mövqeyini möhkəmləndirib. BMT siyasət müzakirələrində iştirak, texniki təcrübənin paylaşılması, institusional potensialın artırılması və ətraf mühitin dayanıqlığı təşəbbüslərinin təşviqi yolu ilə milli səyləri dəstəkləyib. Bu, iqlim siyasətlərinin bütün icmaların, xüsusilə də həssas qrupların ehtiyaclarını nəzərə almasını təmin edib.

### 1. İqlim planlaşdırılması, maliyyələşdirmə və hesabatvermə üzrə institusional potensialların gücləndirilməsi

Effektiv iqlim idarəçiliyi emissiyaların izlənməsi, iqlim maliyyəsinə çıxış imkanının təmin olunması və müxtəlif sektorlar arasında dayanıqlığın inteqrasiyası üçün güclü institusional mexanizmlərin olmasını tələb edir. 2024-cü ildə BMT bu prioritetlərin təşviqi üzrə milli səyləri dəstəkləməyə davam edib.

- Paris Sazişinə əsasən iqlimlə bağlı hesabatlılığın artırılmasına yönəlmiş əsas hesabatvermə tələbi olan ilk İkiillik Şəffaflıq Hesabatı təqdim olunub. Hesabatda istixana

### 2024-cü ildə maliyyələşmə

| Büdcə (ABŞ dolları) | Xərclər (ABŞ dolları) | Yerinə yetirmə (%) |
| --- | --- | --- |
| 2 543 242 | 1 519 687 | 60 |

### DİM-lərə töhfə in 2024




### Gender bərabərliyinə töhfə (ABŞ dolları)




- **Marker 0**–410 000
- **Marker 1**–401 600
- **Marker 2**–2 179 810

qazı emissiyaları, iqlim öhdəliklərinin yerinə yetirilməsi üzrə irəliləyiş, uyğunlaşma tədbirləri və iqlim maliyyəsi ilə bağlı məlumatlar əks olunub.

- İqlim dəyişmələrinə uyğunlaşmanın milli siyasətlərə inteqrasiyası, kənd təsərrüfatı, su ehtiyatları və fəlakət risklərinin idarə olunması sahələrində zəifliklərin aradan qaldırılması və iqlim maliyyəsinə çıxış imkanının yaxşılaşdırılması üzrə strategiya olan Milli Uyğunlaşma Planı yekunlaşdırılıb.

- İqlim idarəçiliyinə dair 14 ixtisaslaşdırılmış modul Dövlət İdarəçilik Akademiyasının dayanıqlı inkişaf proqramına inteqrasiya olunub.

- 250 dövlət qulluqçusu (100-ü qadın) su və sahilyanı ərazilərin iqlim dəyişmələrinə uyğunlaşdırılması və iqlim maliyyələşməsi mövzusunda təlimdən keçib.

- 685 səhiyyə işçisi iqlimlə bağlı sağlamlıq təhlükələri mövzusunda təlimdən keçərək, səhiyyə sistemləri ilə iqlim dəyişmələrinə uyğunlaşma tədbirlərinin inteqrasiyası üzrə potensiallarını artırıb.

- Siyasətçilər üçün iqlim riskləri və uyğunlaşma həlləri barədə real vaxt rejimində məlumat əldə etməyə imkan verən İqlim Portalı yaradılıb.

- Beynəlxalq ətraf mühit konvensiyalarına uyğunluq gücləndirilib. Rotterdam Konvensiyasının ratifikasiyası üçün Ölkə Profilinin yenilənməsinə və Stokholm Konvensiyası çərçivəsində Azərbaycanın Milli İcra Planının yekunlaşdırılmasına köməklik göstərilib. Bu tədbirlər milli prioritetlərlə ətraf mühit üzrə qlobal öhdəliklərin uzlaşdırılmasını təmin edib.

- Dövlət qulluqçuları iqlim maliyyələşməsi, yaşıl büdcə prosesi, siyasətlərin inteqrasiyası, elektrikli nəqliyyatdan istifadəyə keçid və nəqliyyat sistemlərinin davamlılığı üzrə təlimdən keçiblər. Bu təlim onları əsas sektorlarda dayanıqlı siyasətləri həyata keçirmək və iqlim dəyişmələrinə davamlılığı artırmaq üçün lazımi bacarıqlarla təmin edib.

- Hava Konvensiyası və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində, hava çirkləndiriciləri və istixana qazı emissiyaları üzrə məlumatların ardıcıllığını və ətraf mühitin monitorinqini gücləndirən inteqrasiya edilmiş hesabatvermə sistemi qurulub.

- İqlimə yönəlmiş təhsil təşəbbüsləri çərçivəsində 500 şagird (240-ı qız) elm, texnologiya, mühəndislik və riyaziyyat əsaslı yaşıl bacarıqlarla, 1300 məktəbəqədər yaşlı uşaq isə iqlimlə bağlı ilkin biliklərlə təmin olunub.

2023-cü ildə başladılan “Gənc İqlim Elçiləri” proqramı Azərbaycan üzrə təxminən 600 gəncə (58%-i qız) iqlim dəyişikliyinə qarşı mübarizədə fəal iştirak etməkdə kömək edib. Proqram Regional İqlim Həftələri və gənclər tərəfindən idarə olunan təşəbbüslər vasitəsilə gəncləri dayanıqlı həllərin təşviqi və yaşıl enerji səylərinin dəstəklənməsi üçün lazımi bilik və bacarıqlarla təmin etmək məqsədi daşıyıb. Bonn İqlim Dəyişikliyi Konfransı, “Gələcəyin Sammiti” adlı Gənclər Fəaliyyət Günləri və COP29 daxil olmaqla, milli və qlobal platformalarda gənclərin səsləri gücləndirilib. Bundan əlavə, BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası (UNYAC) gəncləri Cənubi Qafqaz regionunda iqlim problemlərinə dair regional təhlil təqdim etdikləri COP29-un Yaşıl Zonasındakı Gənclər Evi pavilyonunda bir araya gətirib və iştirakçıların əsas problemləri müəyyən etməsi və həll yollarını birgə hazırlaması üçün interaktiv sessiya təşkil edərək gənclərin rəhbərlik etdiyi iqlim fəaliyyətini gücləndirib.

## 2. Torpaq və su resurslarının dayanıqlı idarə olunması ilə iqlim dəyişmələrinə davamlılığın artırılması

İqlim dəyişikliyi Azərbaycanın torpaq və su resurslarına, eləcə də turizm sektoruna təhlükə yaradır və bu səbəbdən həssas bölgələrdə insanların yaşayış vasitələrini qorumaq üçün risklərin azaldılmasını və davamlılığın artırılmasını təmin edən uyğunlaşma siyasətləri tələb olunur. 2024-cü ildə BMT Azərbaycana torpaqdan dayanıqlı və uyğunlaşdırılmış istifadəyə dair inteqrasiya olunmuş siyasətlərin, su idarəçiliyinə dair həllərin və kənd yerlərinin inkişafı üzrə inteqrasiya edilmiş yanaşmaların hazırlanmasında dəstək verərək, iqlim riskləri ilə üzləşən icmalar üçün resurslardan dayanıqlı istifadəni təmin edib.

- Cəbrayıl rayonunun Horovlu kəndi də daxil olmaqla, üç ənənəvi kəhriz su sisteminin bərpası nəticəsində 340 ev təsərrüfatı içməli su, əkin və heyvandarlıq ehtiyacları üçün etibarlı su mənbələri ilə təmin olunub, 85.9 hektar əkin sahəsinin suvarılması mümkün olub, keçmiş məcburi köçkünlər və iqlim dəyişikliyinə həssas icmalar üçün iqlim dəyişmələrinə davamlılıq gücləndirilib.

- Su İdarəçiliyi üzrə Tədqiqatın həyata keçirilməsi su resurslarının iqlim dəyişmələrinə davamlı şəkildə paylanması və qorunması siyasətlərinin formalaşmasına töhfə verib.

- Xüsusi Mühafizə olunan Təbiət Ərazilərinin planlaşdırılması və idarə olunması üzrə Azərbaycanın qanunvericilik bazasının hazırlanması üçün verilmiş hüquqi və texniki dəstək ölkənin biomüxtəlifliklə zəngin ekosistemləri planlaşdırmaq, idarə etmək və qorumaq potensialını artırıb.

- Şirvan və Hirkan qoruqları üzrə İnventarlaşdırma və Monitorinq Sistemi investisiya imkanlarının təhlili ilə yanaşı, ətraf mühitə təzyiqləri azaltmağın və yerli təsərrüfat fəaliyyətlərini dəstəkləməyin yollarını müəyyən etməklə biomüxtəlifliyin və ekosistemin mühafizəsini dəstəkləyib.

- Qax rayonunda şabalıd ağacları üçün yeni invaziv zərərverici həşəratın yayılması ilə bağlı olaraq, dərhal bioloji nəzarət tədbirləri tətbiq olunub və bu, zərərvericilərə qarşı mübarizənin təhlükəsiz, praktik və ekoloji cəhətdən təmiz şəkildə aparılmasına şərait yaradıb.

## 3. Emissiyaların azaldılması üçün enerji səmərəliliyi həllərinin təşviqi

- Azərbaycanın yaşıl iqtisadiyyata keçidi təmiz enerji siyasətlərini, səmərəlilik tədbirlərini və emissiyaların azaldılması strategiyalarını tələb edir. 2024-cü ildə BMT siyasət innovasiyaları, enerjiyə qənaət edən texnologiyaların inteqrasiyası, dayanıqlı infrastrukturun inkişafı və potensialın artırılması vasitəsilə bərpa olunan enerji həllərinə üstünlük verərək, Azərbaycanın aşağı karbonlu iqtisadiyyata keçidinin sürətləndirilməsinə dəstək göstərib.

- Məhsulun Ekoloji İzi və İstixana Qazlarının Dayanıqlı İdarə Olunması standartları üzrə yol xəritəsinin hazırlanması Azərbaycanın enerji siyasətlərini karbon emissiyalarının azaldılması üzrə qlobal öhdəliklərlə uyğunlaşdırıb.

- Yeni məlumatlar, təhlil və beynəlxalq əməkdaşlıq vasitəsilə inkişaf etməkdə olan ölkələrdə təmiz enerji innovasiyalarını dəstəkləmək üçün ağıllı enerji, təmiz hidrogen və vacib minerallar üzrə üç yeni bazar qiymətləndirməsi hesabatı təqdim olunub.

## 4. Şəhər və kənd yerlərində ekoloji təhlükələrin və çirklənmənin azaldılması

Azərbaycanın urbanizasiya və sənaye inkişafı iqtisadi imkanlar yaratmaqla yanaşı, ətraf mühitin dayanıqlı idarə olunmasının vacibliyini də önə çıxarır. Sübutlara əsaslanan siyasətlərin, tənzimləyici çərçivələrin və praktiki tədbirlərin gücləndirilməsi təbii ehtiyatların qorunmasına, çirklənmənin azaldılmasına və həyat keyfiyyətinin yüksəldilməsinə kömək edir. 2024-cü ildə BMT daha təmiz, daha yaşıl və daha davamlı şəhər və kənd mühitlərinin yaradılması istiqamətində milli səyləri dəstəkləyib.

- Xəzər dənizinin sahili boyunca şəhərlərdə iqlim dəyişmələrinə davamlı icmaların qurulması üçün 10 milyon ABŞ dolları dəyərində Uyğunlaşma Fondu layihəsi iqlim dəyişmələrinə uyğunlaşma sahəsində yerli səviyyədə reallaşdırılmış mühüm bir investisiya olub.

- Təhlükəli tullantıların idarə edilməsi və ekoloji risklərin azaldılması sahəsində milli səyləri dəstəkləmək məqsədilə, əsas çatışmazlıqları və zəruri təkmilləşdirmələri müəyyən edən hərtərəfli qiymətləndirmə vasitəsilə Cəngi Pestisid Poliqonunun dayanıqlı idarə olunması üçün potensiallar gücləndirilib.

- İnteqrasiya edilmiş zərərvericilərlə mübarizə təşəbbüsləri zərərvericilərə qarşı dayanıqlı mübarizə üsullarını təşviq edərək və təhlükəli kimyəvi maddələrdən asılılığı azaldaraq, fermerlərin və kənd icmalarının həm sağlamlığına, həm də ətraf mühitə fayda verib.

- Kənd yerlərində kənd təsərrüfatında istifadə olunan təhlükəli kimyəvi maddələrin təhlükəsiz və dayanıqlı utilizasiyasını yaxşılaşdırmaq məqsədilə Pestisid Tullantılarının İdarə Olunması üzrə Fəaliyyət Planı hazırlanıb. 95 sahə işçisi (onlardan 26-sı qadın) ziyanvericilərin diaqnostikası, bioloji nəzarət üsulları və xəstəliklərin monitorinqi mövzularında təlimdən keçib. Bu tədbir zərərvericilərin və xəstəliklərin izlənilməsi sistemlərini təkmilləşdirmək, kənd təsərrüfatı təhlükələrinə cavabvermə qabiliyyətini artırmaq və potensial məhsul itkisini azaltmaq məqsədi daşıyır.

- Ölkənin bitki sağlamlığı ilə bağlı təhlükələrə, o cümlədən zərərvericilərin yayılmasına və xəstəliklərə qarşı hazırlığını və cavabvermə imkanlarını gücləndirmək, məhsulların mühafizəsini və ərzaq təhlükəsizliyini təmin etmək üçün bitki mühafizəsi üzrə fövqəladə tədbirlər planı hazırlanıb.

- Səhiyyə siyasətlərinin iqlim dəyişmələrinə davamlı olmasını təmin etmək məqsədilə, Həssaslıq və Uyğunlaşma qiymətləndirməsi və hazırlanmış "Sağlamlıq və İqlim Dəyişikliyi üzrə Ölkə Profili" Səhiyyənin Təhlükəsizliyinin Təmini üzrə Milli Fəaliyyət Planı üçün məlumat mənbəyi olmaq məqsədi daşıyır.

## Çətinliklər, öyrənilmiş dərslər

1. Azərbaycan iqlim və ətraf mühitin maliyyələşdirilməsi mexanizmlərinə çıxış imkanını gücləndirsə də, uyğunlaşma və təsirlərin azaldılması təşəbbüslərini genişləndirmək və iqlim maliyyəsinin səmərəli şəkildə cəlb olunmasını və istifadəsini təmin etmək üçün əlavə investisiyalar tələb olunur.
2. Nazirliklər arasında əməkdaşlığın və texniki təcrübənin gücləndirilməsi milli iqlim tədbirlərinin sektoral siyasətlərə uyğunlaşdırılması və iqlim strategiyalarının effektiv şəkildə həyata keçirilməsi üçün mühüm əhəmiyyət daşımaqda davam edir.
3. Yerli icmaların iqlim dəyişmələrinə davamlılıq strategiyalarında fəal iştirakının təmin edilməsi üçün məlumatlılığın artırılması və potensialın gücləndirilməsi proqramlarına daha çox investisiya ayrılmalıdır.
4. Real vaxt rejimində ətraf mühit məlumatlarına çıxış imkanının genişləndirilməsi daha məqsədyönlü, sübutlara əsaslanan tədbirlərin həyata keçirilməsini təmin edəcək.



Biləsuvar Peşə Liseyinin şagirdləri kənd təsərrüfatı, təkrar emal olunmuş materiallarla incəsənət və arıçılıqda yeni tendensiyalar haqqında məlumat əldə edirlər.
Foto: FAO/Cavid Qurbanov/2024



Tural Kərimov fəal atalıq və kişilərin uşağa qulluqda iştirakının vacibliyini təbliğ etmək üçün olan sərgidə qızı ilə fotosunu paylaşan atalardandır. Foto: UNFPA/2024

# Nəticə 4.1:

## Gender bərabərliyinə əsaslanan cəmiyyət

**Müvafiq müdafiə tədbirlərindən kənarda qalanlar da daxil olmaqla, qadın və qızlar onların ayrı-seçkilik və zorakılıqdan qorunmasını təmin edən və həyatın bütün sahələrində iştirakı üçün səlahiyyətlərini artıran təkmilləşdirilmiş milli mexanizmlərdən faydalanır**

### Azərbaycanda gender bərabərliyinin inkişafı və qadın hüquqlarının təşviqi

2024-cü ildə BMT-nin Azərbaycandakı nümayəndəliyi gender bərabərliyinin təşviqi istiqamətində milli səylərə siyasət dəstəyi, təşviqat və potensialın gücləndirilməsi vasitəsilə töhfə verib. Bu səylər qadınların sosial, iqtisadi və siyasi həyatda iştirakının artırılmasına, xidmətlərə çıxış imkanlarının yaxşılaşdırılmasına, eləcə də gender əsaslı zorakılıq və ayrı-seçkiliyin aradan qaldırılması üzrə tədbirlərin görülməsinə yönəlib. Bu fəaliyyətlər BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyası (CEDAW), Pekin Fəaliyyət Platforması və Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə uyğunluq təşkil etməklə, kənd ərazisində yaşayan qadınlara, məcburi köçkün əhaliyə və zorakılıq qurbanlarına xüsusi diqqət yetirilməklə həyata keçirilib.

### 1. Gender bərabərliyi üzrə milli siyasətlərin və fəaliyyət planlarının gücləndirilməsi

Gender bərabərliyində davamlı irəliləyişin təmin olunması öhdəliklərin fəaliyyətə çevrilməsinə xidmət edən güclü institusional çərçivələrin və siyasətlərin mövcudluğunu tələb edir. BMT Azərbaycanın gender əsaslı zorakılığın qarşısının alınması və qadınların səlahiyyətlərinin artırılması üzrə milli səylərini gücləndirərək, gendera həssas siyasətlərin və fəaliyyət planlarının hazırlanması və həyata keçirilməsi məqsədilə milli qurumlarla sıx əməkdaşlıq edib.

## 2024-cü ildə maliyyələşmə

| Büdcə (ABŞ dolları) | Xərclər (ABŞ dolları) | Yerinə yetirmə (%) |
|---|---|---|
| 1 631 041 | 1 251 514 | 77 |

- Məişət zorakılığının qarşısının alınması, zorakılığa qarşı müdafiə və cavab tədbirləri üzrə kompleks strategiyaları özündə birləşdirən Gender Əsaslı Zorakılıq üzrə Siyasət Çərçivəsi (2025-2029) yekunlaşdırılıb. Bu çərçivə Azərbaycanda mövcud hüquqi və institusional mexanizmləri gücləndirməklə, milli səyləri beynəlxalq insan hüquqları standartlarına uyğunlaşdırır.
- Gender əsaslı zorakılıq üzrə fərdi işlərin idarə olunması üçün Standart Əməliyyat Prosedurları (SƏP) hazırlanıb, zərərçəkənlərin effektiv şəkildə müdafiəsini təmin etmək üçün yönləndirmə mexanizmləri, zərərçəkən yönümlü cavab protokolları və xidmət təminatçıları arasında koordinasiyanın təkmilləşdirilməsi mexanizmləri müəyyən edilib.
- Gender əsaslı zorakılıq üzrə xidmətlərin akkreditasiyası mexanizminin yaradılması xidmətlərin göstərilməsində keyfiyyət standartlarının, hesabatlılığın, zərərçəkmiş şəxslər üçün nəzərdə tutulan dəstək sistemlərinin dayanıqlılığının gücləndirilməsinə yönəlir.
- Məxfiliyin təmin olunduğu yönləndirmə prosesləri, gender əsaslı zorakılıq və cinsi və reproduktiv sağlamlıq xidmətlərinin inteqrasiyası, eləcə də ilkin psixoloji yardım kimi əsas sahələrdə 100 sosial işçi üçün nəzərdə tutulan xüsusi təlimlər fərdi işlərin idarə olunmasının əhatə dairəsinin genişləndirilməsinə və icmanın dəstək xidmətlərinə inamını və cəlb olunmasını artırmağa xidmət edir.

## DİM-lərə töhfə

100%

## Gender bərabərliyinə töhfə (ABŞ dolları)




**Marker 3**–2 338 965

- Zərərçəkmiş şəxslər üçün psixoloji dəstək, böhrana cavabvermə və yönləndirmə xidmətləri göstərən gender əsaslı zorakılıq üzrə milli, üçrəqəmli qaynar xətt 2024-cü il boyunca fasiləsiz fəaliyyət göstərərək, 330 nəfərdən artıq şəxsin faydalanmasına şərait yaradıb.

- Qarabağ və Şərqi Zəngəzur bölgələrində keçmiş məcburi köçkünlər üçün ehtiyacların müstəqil qiymətləndirilməsi ilə dəstəklənən, gender məsələlərinə həssas olan reinteqrasiya planı hazırlanıb. Bu təşəbbüsə əlavə olaraq, inklüziv xidmətlərin göstərilməsini gücləndirmək məqsədilə "İctimai xidmətlərin genderə həssas və inklüziv formada təşkili" üzrə təlimat əsas qurumlarla paylaşılıb. Bundan əlavə, "BMT-nin qadın məhkumlarla rəftar və qadın cinayətkarlar üçün həbslə bağlı olmayan tədbirlərə dair qaydaları"na ("Banqkok Qaydaları") uyğun olaraq genderə həssas penitensiar idarəetmə üzrə təlimatlar hazırlanıb ki, bu da penitensiar sistemdə inklüziv və hüquqlara əsaslanan yanaşmaları təşviq edir.

## 2. Zərərli gender stereotipləri və normalarına qarşı mübarizə

İctimai rəy və cəmiyyətin qəbul etdiyi normalar gender bərabərliyinin inkişafında çox mühüm rol oynayır. 2024-cü ildə BMT müsbət gender normalarının təşviqi, zərərli stereotiplərə qarşı mübarizə və gender bərabərliyinə əsaslanan münasibətlərin təşviq edilməsi məqsədilə təşviqat təşəbbüslərini, media kampaniyalarını və icmanın cəlb olunması proqramlarını dəstəkləyib.

- 9,392 yeniyetmə qız uşağı zorakılıq və zərərli təcrübələrin, o cümlədən erkən nikahların və gender əsaslı zorakılığın qarşısının alınmasına dair məlumatlarla maarifləndirilib.

- Gender əsaslı zorakılığa qarşı "16 Günlük Fəallıq" kampaniyası çərçivəsində 300-dən çox tələbə iştirak edib, onlara zərərli gender normalarını tanımaqda və onları sorğulamaqda bilik və bacarıqlar aşılanıb, eyni zamanda gender əsaslı zorakılıq və dəstək xidmətləri üzrə maarifləndirici materiallar paylanıb.

- "Atalar məktəbi" layihəsi altı region üzrə 185 atanı cəlb edərək, onlara qayğı göstərməkdə fəal iştirak etməklə bağlı bacarıqlar qazandırıb və müsbət atalıq modelini və qayğı göstərilməsində bərabər vəzifə bölgüsünü təşviq edib.

- Maarifləndirmə fəaliyyətləri altı rayonu əhatə etməklə 2,698 nəfəri cəlb edib, uşaq hüquqları məsələlərini (gender əsaslı ayrı-seçkilik, gender əsaslı zorakılıq, erkən nikah və digər zərərli təcrübələr) əhatə edib.

## 3. Qadınların bacarıqlarının, təhsil və iqtisadi imkanlarının genişləndirilməsi

Qadınların sosial və iqtisadi həyatda tam şəkildə iştirak edə bilməsini təmin etmək üçün onların iqtisadi səlahiyyətlərinin artırılması əsas şərtdir. Qadın və qızların bacarıqlara yiyələnməsi, təhsil alması və iqtisadi imkanlardan faydalanması gender fərqinin azaldılmasında və qadınların səlahiyyətlərinin artırılmasında mühüm rol oynayır. BMT iqtisadi iştirakı artırmaq, STEM sahəsində təhsili təşviq etmək və qadınlar və qızlar üçün liderlik bacarıqlarını inkişaf etdirmək üçün məqsədyönlü təşəbbüslər həyata keçirib.

- İyirmi dörd özəl sektor şirkəti Qadınların Gücləndirilməsi Prinsiplərinə (WEPs) qoşularaq, iş yerlərində, bazar mühitində və cəmiyyətdə gender bərabərliyinin təşviqi və qadınların gücləndirilməsi üzrə sadiqlik öhdəliyini nümayiş etdirib.

- Qadın Resurs Mərkəzləri (QRM-lər) münaqişədən zərər çəkmiş 2,107 qadının iqtisadi səlahiyyətlərinin artırılmasını və dayanıqlığını dəstəkləməklə, onlar üçün layihələrin planlaşdırılması və təməl bacarıqlar üzrə təlimlər keçirib.

- 1,388 qadın iqtisadi iştirakını gücləndirmək məqsədilə hüquqi istiqamətləndirmə və məsləhət xidmətlərindən faydalanıb, 1,256 qadın isə Tərtər, Bərdə və Ağcabədi rayonlarında psixoloji məsləhət xidməti alıb.

- Ağdam, Bakı, Gəncə və Mingəçevir şəhərlərindəki məcburi köçkün icmalarında gender bərabərliyi mövzusunda təşkil edilmiş sessiyalar çərçivəsində 463 nəfər, o cümlədən 286 qadın cəlb olunub, tədbirlər çərçivəsində icma qrupu görüşləri, paraleqallarla məsləhətləşmələr, idman, asudə vaxt və potensialın gücləndirilməsi üzrə digər sessiyalar həyata keçirilib.

## Çətinliklər və öyrənilmiş dərslər

1. Siyasət və hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsinə baxmayaraq, gender əsaslı zorakılıq hələ də ciddi problem olaraq qalır və zərərçəkmiş şəxslərin adekvat şəkildə müdafiəsi və ədalət mühakiməsinə çıxışının təmin olunması üçün icra mexanizmlərinin daha da gücləndirilməsinə ehtiyac var.
2. Zərərli sosial normalar qadınların məşğulluq imkanlarına və resurslara çıxış imkanını məhdudlaşdırmaqda davam edir ki, bu da iş yerlərində siyasətlərə və maliyyə inklüzivliyinə daha çox investisiya edilməsini tələb edir.
3. Qadınlar idarəçilik, biznes və vətəndaş cəmiyyətində siyasi və iqtisadi rəhbər vəzifələrdə kifayət qədər təmsil olunmur. Bu isə liderlik bacarıqlarının inkişafı təşəbbüsləri, potensialın gücləndirilməsi proqramları və siyasət müdaxilələrinin zəruriliyini göstərir.

## ✨ Ümid hekayəsi

### Ümid sonda ölür

Əvvəllər xoşbəxt başlayan bir evlilik qısa bir zamanda nəzarət, təcrid və zorakılığın olduğu bir dövrə çevrildi. Günlərlə bir otaqda kilidlənmiş, ailəsi və dostlarından təcrid olunmuş və hətta həyat yoldaşının ailəsi tərəfindən günahlandırılmış Aynurun (məxfilik üçün adı dəyişdirilib) sığındığı tək bir şey var idi — ümid.

Aynur məxfi psixoloji dəstək təklif edən 860 qaynar xəttini kəşf etdikdə, hər şey dəyişdi. Təcrübəli psixoloqla keçdiyi səkkiz seans ərzində Aynur özünə inamını bərpa etdi, peşəkar kimliyini yenidən kəşf etdi və ayrılmaq üçün özündə güc tapdı. Bu gün o, müəllimlik peşəsinə geri dönüb, maliyyə müstəqilliyini əldə edib və barışmaqla bağlı göstərilən təzyiqlərə baxmayaraq, zorakı münasibətə qayıtmamaq qərarını verib.



Foto: UNFPA/2024

**"Ümid sonda ölür" – deyə Aynur bildirir. "Amma indi bu günü yaşayıram – qızım və özüm üçün."**

Ətraflı buradan oxuyun

## 2.3. Tərəfdaşlıqlara dəstək və 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi

2024-cü ildə Azərbaycandakı BMT sistemi Azərbaycanda DİM-lər istiqamətində irəliləmək, habelə BMT-nin 29-cu İqlim Dəyişikliyi Konfransına (COP29) ev sahibi kimi Azərbaycanı dəstəkləmək üçün dövlət qurumları, özəl sektor, beynəlxalq inkişaf tərəfdaşları və vətəndaş cəmiyyəti ilə mühüm inkişaf tərəfdaşlıqları qurub və gücləndirib.

### DİM-lərin icrasının sürətləndirilməsi, maliyyələşdirilməsi və siyasət uyğunluğunun təmin edilməsi üzrə tərəfdaşlıqların gücləndirilməsi

- **DİM Dialoqu platforması:** Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və BMT 2024-cü ildə bu platformadan istifadəni davam etdirərək, iki çoxtərəfli DİM dialoqu təşkil edib: "Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr, qadınların iqtisadi hüquq və imkanlarının genişləndirilməsi və 5-ci DİM üzrə irəliləyiş" və "Gələcəyin sədaları: İqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi". Bu dialoqlar konkret DİM-lərin icrasında irəliləyiş və milli səviyyədə müəyyən edilmiş töhfələrin yerinə yetirilməsi üçün iqlim maliyyəsinin artırılması üzrə siyasət müzakirələri aparmaq, məqsədyönlü siyasət bəyannamələri və tövsiyələr hazırlamaq məqsədilə hökumət və digər tərəfdaşları bir araya gətirib.

- **Azərbaycan və Laos arasında Könüllü Milli İcmal üzrə Tvinninq Təşəbbüsü**: UN ESCAP və hər iki ölkədə BMT-nin Rezident Əlaqələndiricisinin Ofislərinin təşəbbüsü ilə, Azərbaycanla Laos arasında həyata keçirilmiş bu təcrübə mübadiləsi bir-birinin təcrübəsindən öyrənmə və bilik mübadiləsi vasitəsilə hər iki ölkədə VNR prosesinin gücləndirilməsinə töhfə verib. Virtual və birbaşa görüşlər vasitəsilə ölkələr DİM-lərin prioritetləşdirilməsi, siyasətlərin uyğunlaşdırılması və maraqlı tərəflərin cəlb edilməsi sahəsində praktik təcrübə mübadiləsi aparıb. Təşəbbüs çərçivəsində əsas diqqət hər iki ölkənin qəbul etdiyi, dayanıqlı inkişafa maneə olan mina təhlükəsinin və müharibənin partlayıcı qalıqlarının aradan qaldırılmasına hədəflənən milli 18-ci DİM-ə yönəlib. Bu Təşəbbüs Yüksək Səviyyəli Siyasi Forumda, o cümlədən "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və heç kəsi kənarda qoymamaq üçün partlamamış sursat/minatəmizləmə fəaliyyəti" adlı paralel tədbir vasitəsilə 18-ci DİM üzrə əlavə birgə təşviqat üçün imkan yaradıb. Bundan başqa, ölkələr dövlət xidmətlərinin göstərilməsinin rəqəmsallaşdırılması və milli inkişafın planlaşdırılması ilə bağlı fikir mübadiləsi apararaq, davamlı əməkdaşlıq üçün imkanlar yaradıb.

- Pekin+30: Azərbaycanın Pekin+30 Regional İcmalında fəal iştirakı, eləcə də Milli İcmal Hesabatının hazırlanması ölkənin gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması istiqamətində səyləri davam etdirdiyini nümayiş etdirib. Hesabatda hökumətin genderə həssas büdcə prosesinin inteqrasiyası istiqamətində səyləri davam etdirdiyi, eləcə də onu iqlim də daxil olmaqla, digər DİM sahələrinə genişləndirmək planları qeyd olunur.


BMT-nin Gənc İqlim Elçisi Fəridə Təhməzova COP29-da BMT Baş katibinin gənclərlə iş üzrə köməkçisi Dr. Felipe Paullier ilə söhbət edir. Foto: BMT RƏO/ 2024

## 2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı işləməsinin nəticələri: BMT birliyi, effektivliyi və səmərəliliyi

2024-cü ildə Azərbaycandakı BMT sistemi birgə proqramların, siyasət məsləhətlərinin və əməliyyatlar üzrə əməkdaşlığın təsirini artırmaq üçün BMT-nin islahat gündəliyindən istifadə edərək, sistem səviyyəsində uyğunluğun, səmərəliliyin və effektivliyin inkişafında mühüm irəliləyiş əldə edib. Bu səylər BMT-nin Ölkə üzrə İdarə Heyətinin hökumətə və milli tərəfdaşlara inteqrasiya olunmuş, yüksək keyfiyyətli dəstək göstərmək qabiliyyətini gücləndirməklə yanaşı, səmərəliliyi artırıb və təkrarlanmaları azaldıb.

### BMT-nin Ölkə üzrə İdarə Heyətinin strukturu və əlaqələndirmə mexanizmləri

- **BMT-nin 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi** (ÇS) BMT-nin kollektiv fəaliyyətinin əsası olaraq qalıb və BMT qurumlarının xüsusi proqramlarının BMT-nin Ölkə üzrə İdarə Heyətinin daha geniş məqsədlərinə uyğun olmasını təmin edib. BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi (RƏO) BMT qurumları arasında uyğunluğu təmin etmək üçün, nəticə qruplarının və tematik işçi qruplarının işinə kömək etməklə BMT-nin səylərinin uzlaşdırılmasında mühüm rol oynayıb.

- **Ölkə üzrə Ümumi Təhlilə dair Qurumlararası İşçi Qrupu** tam formatlı yeni təhlil sənədini hazırlayıb, bu zaman strateji uzaqgörənlik yanaşmasından və "üfüqi təhlil" (məlumatların müxtəlif mənbələrdən axtarışı) üsulundan istifadə edib. Yeni sənədə BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) haqqında ümumi fəsil də daxil edilib. Bu fəsil Regional İnkişafı Əlaqələndirmə Ofisinin rəhbərliyi ilə altı RƏO tərəfindən birgə hazırlanıb. Bakıda keçirilən və regional inteqrasiyanın daha da dərinləşdirilməsini nəzərdə tutan 2024-cü il SPECA Dövlət Başçılarının Zirvə görüşündən sonra birgə hazırlanmış fəsildə SPECA-nın iştirakçısı olan dövlətlərə eyni vaxtda təsir edən məsələlər araşdırılıb və daha geniş iqtisadi əməkdaşlıq imkanları vurğulanıb.

### Birgə proqram tərtibi və sistem səviyyəli siyasətlərin həyata keçirilməsi

- 2024-cü ildə BMT-nin **Əlilliyi olan Şəxslərin İnklüziv Cəlbi üzrə Strategiyası** prioritet olaraq qalıb. BMT-nin Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Tərəfdaşlığı fondu tərəfindən maliyyələşdirilən layihə çərçivəsində əlilliyi olan şəxslərin inklüziv cəlbi üzrə vəziyyətin təhlili və potensialın artırılması tədbirləri həyata keçirilib. Əlilliyi olan şəxslərin məşğulluğu və təmsilçiliyi sahələrində təşəbbüslər, o cümlədən əlilliyi olan BMT Könüllüsünün COP29 və ÇS ilə bağlı əlaqələndirmə işlərinə cəlb edilməsi inklüziv iş mühiti ilə bağlı öhdəliyi bir daha təsdiqləyib. BMT ofisinin əlilliyi olan şəxslərə daha əlçatan olması üçün sadə, lakin vacib bir addım atılıb: onun birinci mərtəbəsi indi əlil arabasından istifadə edən insanlar üçün tam əlçatandır, əlilliyi olan şəxslərin təşkilatlarının nümayəndələri isə BMT ofisinin əlilliyi olan şəxslər üçün daha inklüziv olması ilə bağlı əlavə tövsiyələr verib.

- BMT gənclərin əhəmiyyətli iştirakını təmin etmək öhdəliyinə uyğun olaraq, qadınların, əlilliyi olan şəxslərin və regionlardan olan gənclərin təmsil olunduğu, 17 gəncdən ibarət çoxtərkibli **BMT-nin Gənclərdən ibarət Məşvərət Şurasını (UNYAC)** məsləhətləşmə və dialoqlara (COP29-dan əvvəl keçirilmiş "Gələcəyin Sammiti" ərəfəsində təşkil olunanlar daxil olmaqla) cəlb edib. UNYAC

üzvləri ESCAP-ın təşkil etdiyi Şimali və Mərkəzi Asiya üzrə DİM Forumunda da Azərbaycanı təmsil edib. Gənclərin baxışlarını BMT-nin strategiya və proqramlarına inteqrasiya etmək məqsədilə, ÇS və Ölkə üzrə Ümumi Təhlil sənədlərinin xarici qiymətləndirilməsi çərçivəsində UNYAC-ın üzvləri ilə məsləhətləşmələr aparılıb. Bundan əlavə, UNYAC üzvləri 2024-cü ilin noyabr ayında ölkəyə səfəri zamanı BMT-nin Baş katibinin gənclərlə iş üzrə köməkçisi  ilə görüşmək imkanı əldə ediblər. Görüşdə yeni qəbul edilmiş "Gələcək üçün Pakt"ın icrası ilə bağlı fikir mübadiləsi aparılıb.

## Əməliyyat səmərəliliyi və xərclərə qənaət tədbirləri

- **Biznes Əməliyyatları Strategiyasının (BƏS)** tətbiqi nəticəsində satınalma və inzibati idarəetmə, maliyyə, insan resursları və İKT sahələrində əməliyyat səmərəliliyi və xərclərə qənaət təmin olunub. 2024-cü ildə BMT ümumilikdə 50,699 ABŞ dolları məbləğində qənaətə nail olub. Birgə istifadə olunan inzibati sahələr və logistik xidmətlər əməliyyat proseslərini optimallaşdıraraq, əməliyyat xərclərində səmərəliliyin artımına səbəb olub. Bundan əlavə, BMT qurumları BMT-Azərbaycan pavilyonunun birgə idarə olunması da daxil olmaqla, COP29 kontekstində birgə təşəbbüslər vasitəsilə səmərəliliyin artırılmasına nail olub.



**Baxmaq** üçün kliklə

3 Dekabr - Beynəlxalq Əliliyi olan şəxslər Günü çərçivəsində əlilliyi olan və olmayan şəxslərdən ibarət inklüziv ƏSA Teatrı iqlim fəaliyyəti mövzulu tamaşanı nümayiş etdirir.
Foto: BMT RƏO/Məmməd Əliyev/2024



BMT-nin Ölkə üzrə İdarə Heyəti Pre-COP29 tədbiri zaman  Bakıya səfəri edən Baş katibin müavini Əminə C.Məhəmməd ilə görüşüb.
Foto: BMT RƏO/ 2024

## Daha böyük təsir üçün birgə kommunikasiya və təşviqat

- Azərbaycanın **COP29**-a ev sahibliyi etməsinin yaratdığı müsbət impulsdan istifadə etmək üçün BMT-nin birgə kommunikasiya və təşviqat səyləri iqlim dəyişikliyinə qarşı mübarizəyə yönəldilib. İqlim dəyişmələrinin təsirindən qeyri-mütənasib şəkildə təsirlənən həssas qruplara xüsusi diqqət yetirərək, insan mərkəzli mesajların gücləndirilməsi məqsədilə, BMT COP29 üçün BMT-nin İqlim Dəyişikliyi üzrə Yüksəksəviyyəli Çempionu və COP29-un Gənclər üzrə İqlim Çempionu ilə sıx əməkdaşlıq edib.

- 2024-cü ildə keçirilmiş 3 COP-un (BMT-nin iqlim dəyişikliyi, bioloji müxtəliflik və səhralaşma ilə mübarizə konvensiyaları üzrə) sədrləri kimi Azərbaycan, Kolumbiya və Səudiyyə Ərəbistanı tərəfindən irəli sürülmüş **Rio-Trio təşəbbüsünə** uyğun olaraq, bu üç ölkənin BMT Rezident Əlaqələndiriciləri ölkə səviyyəsində dayanıqlılıq naminə effektiv və inteqrasiya olunmuş həllərin hazırlanması məqsədilə konvensiyalararası əməkdaşlığa çağırış etmək üçün birgə təşviqat tədbirlərində iştirak edib.



Bir qrup gənc Qobustanda torpaqların deqradasiyası ilə bağlı yeni layihəni müzakirə edir.
Foto: FAO/Cavid Qurbanov/2024

## 2.5. Qiymətləndirmə və öyrənilmiş dərslər

2024-cü ildə aparılmış BMT-nin 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin Yekun Qiymətləndirilməsi zamanı 2021-ci ilin mart ayından 2024-cü ilin iyun ayınadək olan dövrdə həyata keçirilən fəaliyyətlər, BMT-nin Ölkə üzrə İdarə Heyətinin həm rezident, həm də qeyri-rezident statuslu bütün qurumlarının töhfələri təhlil edilib. Qiymətləndirmə zamanı çoxsahəli mövzular, BMT-nin proqram tərtibi prinsipləri və tədbirlərin coğrafi əhatə dairəsi nəzərdən keçirilib.

### Əsas nəticələr:

- **Əhəmiyyətlilik və uyğunlaşma qabiliyyəti:** ÇS Azərbaycanın inkişaf prioritetləri ilə yaxşı uzlaşsa da, göstəricilərin keyfiyyəti, məlumatların etibarlılığı və "Böyük Qayıdış" proqramı kimi yeni yaranan məsələlərə çevik cavabvermə baxımından çatışmazlıqlar mövcuddur. Daha çevik və məlumatlara əsaslanan strategiyalara ehtiyac var.
- **Ardıcıllıq:** Əlaqələndirmə mexanizmləri ardıcıllığı qoruyub saxlasa da, ÇS məqsədləri ilə icra arasında, xüsusən də inklüziv inkişafda bəzi uyğunsuzluqlar mövcuddur. Gender və digər çoxsahəli məsələlər daha sistematik inteqrasiya tələb edir.
- **Effektivlik:** Çərçivə sənədi BMT-nin təcrübəsindən səmərəli şəkildə istifadə edərək, sektorlar üzrə milli siyasətləri dəstəkləyib. Bununla belə, fəaliyyətlərin bir-birindən təcrid olunmuş halda həyata keçirilməsi və əməkdaşlığın məhdudluğu sistematik dəyişikliyə mane olur.
- **Səmərəlilik:** Əlaqələndirmə işi xərcləri azaltmağa və xidmətlərin göstərilməsini yaxşılaşdırmağa imkan verib. Hökumətlə xərclərin paylaşılması resurslardan səmərəli istifadəni artırsa da, nəticələr arasında inteqrasiya hələ də məhduddur.
- **Əlaqələndirmə:** Əks korporativ stimullar və keçmişdən miras qalmış təcrübə səbəbindən dəyişikliyə müəyyən daxili müqavimət olsa da, RƏO əməkdaşlığın təmin edilməsində, kommunikasiyaların idarə edilməsində və DİM gündəliyinin təşviqində mühüm rol oynayıb.
- **Təsir:** ÇS DİM-lərin milli sistemlərə inteqrasiyasına, təhsil və ətraf mühit kimi sahələrdə siyasət islahatları üzrə irəliləyişə töhfə verib. Bununla belə, yerli səviyyəli təşəbbüslərin genişləndirilməsi hələ də problemli olaraq qalır.
- **Dayanıqlılıq:** Milli strategiyalarla güclü uyğunluq və hökumətin sahiblənməsi dayanıqlığı dəstəkləyir. Bununla belə, insan hüquqları və gender bərabərliyi sahələrində vətəndaş cəmiyyəti ilə daha sıx əməkdaşlığa ehtiyac var.

### Tövsiyələr:

1. Sektorlararası inteqrasiyanı gücləndirmək və monitorinq sistemlərini təkmilləşdirmək.
2. Gələcək ÇS-i "Böyük Qayıdış" proqramı daxil olmaqla əsas milli prioritetlərlə uyğunlaşdırmaq.
3. ÇS-i reallığa əsaslanan və yaxşı strukturlaşdırılmış nəticə çərçivələri üzərində qurmaq.
4. Milli məlumat sistemlərini və DİM-lərin inteqrasiyasını dəstəkləmək.
5. Daha yaxşı əlaqələndirmə üçün nəticələri və tematik qrupları əlaqələndirmək.
6. Birgə proqram tərtibi və inteqrasiya olunmuş maliyyələşdirmə mexanizmlərini araşdırmaq.
7. Dayanıqlıq və yerli səviyyədə sahiblənmə prinsiplərini dizayn mərhələsindən başlayaraq tətbiq etmək.
8. Gender, insan hüquqları və "Heç kəsin kənarda qalmaması" prinsiplərini bütün mərhələlərdə nəzərə almaq.
9. Birgə planlaşdırma prosesində nəticə qruplarının və monitorinq, qiymətləndirmə və öyrənmə (MEL) komandalarının səlahiyyətlərini artırmaq.

### Öyrənilmiş dərslər:

1. Birgə proqram tərtibi DİM-lərin icrasında irəliləyişi sürətləndirir və potensialı gücləndirir.
2. RƏO-nun əlaqələndirmə funksiyası ÇS-in uğuru üçün mühüm əhəmiyyət kəsb edir.
3. Güclü tərəfdaşlıqlar və yerli səviyyədə iştirak dayanıqlılığı təmin edir.
4. Yenilənmiş və reallığa əsaslanan nəticə çərçivələri zəruridir.
5. Uyğunlaşdırılmış icra təcrübələri və UNINFO sistemindən istifadə yaxşılaşdırılmalıdır.
6. Birgə İş Planları yalnız inzibati sənəd deyil, həm də strateji alət kimi istifadə olunmalıdır.

# 2.6. Maliyyə icmalı və resursların cəlb olunması

## 2.6.1. 2024-cü il üzrə maliyyə icmalı

| Büdcə | Xərc | Yerinə yetirmə (%) |
|---|---|---|
| 29 285 242 | 23 525 759 | 80 |

### Nəticələr üzrə (ABŞ dolları)

| | Büdcə | Xərc | Yerinə yetirmə (%) |
|---|---|---|---|
| **Nəticə 1.1** İnklüziv artım və layiqli əmək | 8 817 913 | 7 784 982 | 88 |
| **Nəticə 2.1** Güclü institutlar, keyfiyyətli dövlət və sosial xidmətlər | 15 547 984 | 12 269 600 | 79 |
| **Nəticə 2.2** Məlumatlara əsaslanan qərar qəbulu və siyasətlər | 745 062 | 699 976 | 94 |
| **Nəticə 3.1** Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinə qarşı mübarizə | 2 543 242 | 1 519 687 | 60 |
| **Nəticə 4.1** Gender bərabərliyinə əsaslanan cəmiyyət | 1 631 041 | 1 251 514 | 70 |
| **Cəmi** | 29 285 242 | 23 525 759 | 80 |

### BMT qurumları üzrə (ABŞ dolları)

| | Büdcə | Xərc |
|---|---|---|
| BMTİP | 14 038 962 | 12 707 488 |
| BMTQAK | 5 258 856 | 5 258 856 |
| FAO | 3 810 600 | 1 717 015 |
| UNICEF | 2 969 999 | 2 140 137 |
| BMqT | 1 127 744 | 158 939 |
| UNFPA | 863 644 | 491 117 |
| ÜST | 630 751 | 626 751 |
| UN-HABITAT | 407 686 | 273 456 |
| UNECE | 57 000 | 32 000 |
| OHCHR | 50 000 | 50 000 |
| UNIDO | 50 000 | 50 000 |
| ILO | 20 000 | 20 000 |

### Maliyyələşdirmə mənbəyi üzrə (ABŞ dolları)

| | Büdcə | Xərc |
|---|---|---|
| Birləşmiş Millətlər Təşkilatı | 8 617 860 | 7 503 624 |
| Avropa İttifaqı | 8 238 958 | 7 102 014 |
| Azərbaycan hökuməti | 5 776 693 | 5 054 947 |
| Amerika Birləşmiş Ştatları hökuməti | 2 797 286 | 1 000 263 |
| Qlobal Ekoloji Fond | 1 130 000 | 616 552 |
| Birləşmiş Krallıq hökuməti | 1 038 159 | 1 038 159 |
| Yaşıl İqlim Fondu | 799 810 | 453 261 |
| Takeda pharmaceutical company limited | 360 452 | 273 866 |
| Niderland hökuməti | 155 692 | 155 692 |
| Almaniya hökuməti | 141 696 | 141 696 |
| Türkiyə hökuməti | 120 000 | 85 050 |
| İrlandiya Milli Komissiyası | 50 000 | 41 999 |
| Fəlakət Risklərinin Azaldılması və İqlim Dəyişikliyinə Uyğunlaşma Assosiasiyası | 33 636 | 33 636 |
| ATscale qlobal tərəfdaşlıq | 25 000 | 25 000 |

## 2.6.2 Resursların cəlb olunması

Azərbaycandakı BMT sistemi 2021-2024-cü illər ərzində 118 milyon ABŞ dollarına yaxın vəsait cəlb edib və xərcləyib. Bu, Çoxillik Maliyyələşmə Çərçivəsində göstərildiyi kimi, ÇS-in tam icrası üçün tələb olunan ümumi 235.3 milyon dolların təxminən 50%-ni təşkil edir. Azərbaycan Hökumətinin ən yüksək maliyyə töhfəsi verən 3 əsas tərəfdan biridir. BMT də öz əsas resurslarını, xüsusilə COVID-19 pandemiyası və münaqişə kimi böhran vəziyyətlərində cəlb edib. Bundan əlavə, BMT İnteqrə olunmuş Milli Maliyyələşdirmə Çərçivəsinin hazırlanmasında Hökuməti dəstəkləmək üçün Birgə DİM Fondundan 1 milyon ABŞ dollarına yaxın vəsait cəlb etməyə nail olub.

BMT də daxil olmaqla maliyyələşmədə iştirak edən tərəfdaşların sayı 15-ə yaxın olsa da, 3 maliyyə mənbəyi— BMT, Aİ və Azərbaycan Hökuməti birlikdə bütün maliyyələşmənin 70%-ni təmin edib. Maliyyə töhfələrinin böyük hissəsi üzv dövlətlərdən daxil olub və cəmi 3 fond töhfə verib (Qlobal Ekoloji Fond, Yaşıl İqlim Fondu və QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fond). Bundan əlavə, 2021-2024-cü illərdə iki özəl şirkət və bir beynəlxalq QHT maliyyələşdirmədə iştirak edib.

Bu, tərəfdaşlıqların daha çox şaxələndirilməsinin və daha məhsuldar tərəfdaşlıqların qurulmasının zəruriliyini vurğulayır. Bu, Azərbaycanın yuxarı-orta gəlirli ölkə statusu, ölkə daxilində töhfə verən tərəfdaşların sayının məhdud olması, birgə fond təşəbbüslərinin olmaması və töhfə verən tərəfdaşların diqqətinin münaqişələr səbəbindən regiondakı digər ehtiyaclara yönəldilməsi ilə bağlıdır.

| İllər | 2021 | 2022 | 2023 | 2024 | 2021–2024 |
|---|---|---|---|---|---|
| Cəlb olunub (ABŞ dolları) | 28 853 948 | 44 398 651 | 38 873 679 | 29 435 242 | 141 561 520 |
| Xərclənib (ABŞ dolları) | 26 334 213 | 32 612 773 | 3 501 164 | 23 525 759 | 117 773 909 |

# BMT-nin 2025-ci il üçün əsas istiqaməti

Azərbaycan Respublikası Hökuməti ilə BMT arasındakı 33 illik möhkəm əməkdaşlığa əsaslanaraq, 2025-ci il yuxarı-orta gəlirli ölkə olan Azərbaycanda gələcək tərəfdaşlıq və əməkdaşlığın əhatə dairəsinin və formasının yenidən müəyyən edilməsi baxımından əhəmiyyətli dialoq ili olacaq.

Bu, yeni, 2026-2030-cu illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin hazırlanması vasitəsilə mümkün olacaq. Yeni sənəd Hökumətlə birlikdə və maraqlı tərəflərlə məsləhətləşmə şəraitində hazırlanacaq.  Bu zaman, BMT-nin inkişaf sisteminin çevik və tələb yönümlü olmağa davam etməsini tövsiyə edən BMT-nin qlobal inkişaf sistemi islahatlarının gündəliyi də rəhbər tutulacaq.

BMT-nin Ölkə üzrə İdarə Heyəti Azərbaycanda milli inkişaf prioritetlərini və Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin icrasını dəstəkləmək üçün Hökumətlə tərəfdaşlığı davam etdirməyə sadiqdir. Mövcud ÇS çərçivəsində öyrənilmiş dərslər – və Azərbaycanın COP29-a rəhbərlik etməklə göstərdiyi nümunə - iddialı və perspektivli gündəm formalaşdırmaq üçün əsas rol oynayacaq.



Foto: https://cop29.az/en/media-hub/media-gallery/22

UNITED NATIONS
AZERBAIJAN

BMT-nin Rezident Əlaqələndiricisi Ofisi
BMT-nin 50 illiyi küçəsi, 3
AZ 1001 Bakı, Azərbaycan

Tel.: (+99412) 4989-888
www.azerbaijan.un.org